# Xalq qəzeti

Xalqın qəzeti!

№ 187 (30303) 1 sentyabr 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az


## Günün sözü

**Prezident İlham Əliyev:**

**İndi mən yenə də deyirəm: gəlin bu reallıqları qəbul edin, bu reallıqların dəyişməsi baş verərsə, bu, nə Ermənistan, nə də Qarabağın erməni azlığı üçün yaxşı olmayacaq. Bu səbəbdən ümid edirəm ki, onlar bu sözləri eşidəcək və düzgün nəticə çıxaracaqlar.**

# Azərbaycanın enerji potensialı yüksəlir

## Prezident İlham Əliyev "Total Energies" şirkətinin baş icraçı direktorunu qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 31-də "Total Energies" şirkətinin baş icraçı direktoru Patrik Puyanneni qəbul edib.**

Görüşdə "Abşeron" yatağında hasilatın başlanılması vurğulandı və layihənin parametrləri barədə dövlətimizin başçısına ətraflı məlumat verildi. Qeyd edildi ki, hasilat quyusu ən məhsuldar və ən aşağı karbon tullantılarına malik quyudur. Bu da yatağın potensialının zənginliyinin və perspektivinin aydın göstəricisidir.

Söhbət zamanı "Total Energies" şirkətinin Azərbaycanda fəaliyyətinin genişləndirilməsi, o cümlədən, "Abşeron" yatağının tam işlənmə mərhələsinə keçməsi barədə fikir mübadiləsi aparıldı, şirkət tərəfindən layihələrdə iştirakla bağlı maraq ifadə olundu. Ölkə ərazisində, o cümlədən, Naxçıvanda bərpaolunan enerji layihələrinin həyata keçirilməsi perspektivi və potensialı müzakirə edildi.

***AZƏRTAC***

## Qırğız Respublikasının Prezidenti Zati-aliləri cənab Sadır Japarova

**Hörmətli Sadır Nurqojoyeviç,**

Qırğız Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Keçən il qardaş Qırğızıstana dövlət səfərim zamanı Sizin rəhbərliyiniz altında aparılan genişmiqyaslı islahatların və quruculuq işlərinin ölkənizin hərtərəfli inkişafına və rifahına xidmət etdiyini görməkdən məmnun oldum.

Diplomatik münasibətlərimizin qurulmasından ötən otuz ildə qardaş xalqlarımızın iradəsindən qaynaqlanan Azərbaycan–Qırğızıstan dostluq əlaqələri möhkəmlənmiş, qarşılıqlı maraq doğuran əməkdaşlığımız davamlı şəkildə inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir.

Əminəm ki, ortaq köklərə, qardaşlığa, qarşılıqlı inam və etimada əsaslanan dövlətlərarası münasibətlərimizin genişləndirilməsi, yüksələn xətlə inkişaf edən strateji tərəfdaşlığımızın daha da möhkəmləndirilməsi naminə birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, qardaş Qırğız Respublikasına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 avqust 2023-cü il**

## Malayziyanın XVI Ali Başçısı Əlahəzrət əl-Sultan Abdullah Riayatuddin əl-Mustafa Billah Şah ibni əl-Mərhum Sultan Hacı Əhməd Şah əl-Mustain Billaha

**Əlahəzrət,**

Malayziyanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Bu il biz Azərbaycan–Malayziya əlaqələrinin tarixində əlamətdar ildönümünü – ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd etdik. Əminəm ki, Azərbaycan ilə Malayziya arasında dostluq əlaqələrini möhkəmləndirmək, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə, xüsusilə BMT, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı maraq doğuran əməkdaşlığımızı genişləndirmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost Malayziya xalqına daim rifah və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 avqust 2023-cü il**

## Qarabağdakı separatçı rejim gömülür: Arutyunyan "kaput"



"Azərbaycan öz ərazisində boz nəzarətsiz bölgənin olmasına dözmək niyyətində deyil. Qeyri-qanuni rejim buraxılmalı və tərksilah olunmalıdır". Bu fikri Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün "Twitter" səhifəsində bölüşüb. Yazımızın sonunda Hikmət müəllimin belə bir fikri, özü də məhz indi nə üçün bildirməsinə cavab tapacağıq.

**(ardı 3-cü səhifədə)**

# Öz buğdamızın çörəyini yeyək



Səhifə ⇨ 7

# Fransa – qəddarlıq simvolu



**Ərazisinə görə Avropanın ən böyük ölkəsi sayılan Fransa hazırda həmin "Qoca qitə"nin başı qalmaqallardan açılmayan və antisanitariyanın hökm sürdüyü bir əyalət məmləkətinə çevrilib. Bunu azı son iki-üç ildə Avropa İttifaqının bu mərkəzi ölkəsinin daxilində baş verən olaylar və Afrikada üzləşdiyi "qara təzyiqlərdən" hali olan hər kəs bilir.**

Pensiyaçılardan tutmuş aviapilotlara qədər Yelisey sarayının qarşısına kimi yeriyən etiraz dalğası hələ də səngiməyib. Bu dalğanın küləyində haqlarını tələb edən mitinqçilər tərəfindən dövlətin başçısı Emmanuel Makronun üstünə yumurta atılması, üzünə şillə vurulması kimi maraqlı insidentlər də qeydə alındı. Və bütün bu biabırçılıqlar "Beşinci Respublika"da baş verirdi.

**(ardı 4-cü səhifədə)**

**Azərbaycan aprelin 23-də Laçın rayonunda – Ermənistanla şərti sərhəddə nəzarət-buraxılış məntəqəsi yaratdıqdan, öz ərazi bütövlüyünü bərpa etdikdən sonra ölkəmizə edilən siyasi təzyiqlərin miqyası genişlənib. Bu təzyiqlərin təşkilatçısı qismində, ilk növbədə, Ermənistan çıxış edir.**

# Bu, Fransanın Azərbaycana "səlib yürüşü"dürmü?



Sözdə Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bildirən, əməldə isə bunun əksinə gedən baş nazir Nikol Paşinyan, hayların xarici işlər naziri Ararat Mirzoyan müxtəlif xarici dövlətləri, o cümlədən, beynəlxalq təşkilatları ölkəmiz əleyhinə təzyiq kampaniyasına cəlb etməyə çalışırlar. Bu prosesdə Ermənistanın əsas dəstəkçisi qismində öndə gedən Fransadır.

**(ardı 4-cü səhifədə)**

# "Abşeron" – Xəzərin nəhəng qaz-kondensat yatağı

**İqtisadiyyat naziri Mikayıl Cabbarov özünün "X" sosial şəbəkəsində Azərbaycan üçün tarixi əhəmiyyətə malik bir tədbirin–"Abşeron" qaz-kondensat yatağından ilk qazın verilməsi mərasimi keçirildiyini yazıb.**



Nazir daha sonra "Abşeron" qaz-kondensat yatağının fəaliyyətinin ölkəmizin enerji potensialının reallaşdırılmasına, Azərbaycan qazının beynəlxalq bazarlara çatdırılmasına və respublikamızın iqtisadi potensialının gücləndirilməsinə mühüm töhfələr verəcəyini qeyd edib.

**(ardı 5-ci səhifədə)**

# Separatçılar soydaşlarının taleyi ilə oynayırlar

**Dünyanın heç bir siyasi, hərbi güc mərkəzi Azərbaycan dövlətini Qarabağın erməni azlığı ucbatından Konstitusiyasını dəyişməyə məcbur edə bilməz.**

Bu gün Azərbaycan dövləti beynəlxalq ermənipərəst siyasi təşkilatların, dairələrin siyasi-ideoloji şantajı, təzyiq kampaniyası ilə üzləşib. Amma son olaylar onu deməyə əsas verir ki, Azərbaycan ərazisində yaşayan ermənilərin reinteqrasiyası təşəbbüslərinə müdaxilə cəhdləri nəticəsiz qalacaq. Bakının tam şəffaf şəkildə beynəlxalq hüquq normaları çərçivəsində davranması Hayastanın siyasi cəhətdən də tərksilah olunması demək olacaq.



**(ardı 6-cı səhifədə)**

# Tələbələr Yekaterinburqdan 28 medalla qayıdırlar

Səhifə ⇨ 10

## İ.A.Mahmudovun Quba Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

İlqar Akif oğlu Mahmudov Quba Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 31 avqust 2023-cü il**

## Z.Q.Qurbanovun Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Zəfər Qəzənfər oğlu Qurbanov Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 31 avqust 2023-cü il**

## S.Ç.Hacıyevin Naxçıvan Muxtar Respublikası Culfa Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Siyam Çərkəz oğlu Hacıyev Naxçıvan Muxtar Respublikası Culfa Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 31 avqust 2023-cü il**

## Azərbaycan Respublikasının dövlət müəssisələrinə özəl investisiyaların cəlb edilməsi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dövlət müəssisələrində institusional islahatların, restrukturizasiya və sağlamlaşdırma tədbirlərinin davam etdirilməsi, dövlətin iştirak payının azaldılması vasitəsilə özəl investisiyaların cəlb edilməsi, Azərbaycan Respublikası vətəndaşlarının dövlət müəssisələrinin idarəedilməsində iştirakının genişləndirilməsi, korporativ idarəetmənin tətbiqinin şaxələndirilməsi və qiymətli kağızlar bazarının inkişaf etdirilməsi məqsədilə **qərara alıram:**

**1.** "Özəl investisiyaların cəlb edilməsi nəzərdə tutulan dövlət müəssisələrinin siyahısı" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi aidiyyəti üzrə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan İnvestisiya Holdinqi ilə razılaşdırmaqla, bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən siyahıda nəzərdə tutulan dövlət müəssisələri tərəfindən maliyyələşdirilməklə nüfuzlu beynəlxalq məsləhətçi şirkətlərinin cəlb olunmasını təmin etsin və aparılacaq təhlillər əsasında aşağıdakılar barədə təklifləri ni doqquz ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

2.1. dövlət müəssisələrinin restrukturizasiyası və sağlamlaşdırılması;

2.2. dövlət müəssisələrinin qiymətləndirilməsi, onların öhdəlikləri ilə nizamnamə kapitalları arasında optimal nisbət və investisiya ehtiyacları;

2.3. potensial investorların dairəsi;

2.4. müvafiq bazarın rəqabət mühitinin tələbləri nəzərə alınmaqla, liberallaşdırılması və inhisarsızlaşdırılması imkanları;

2.5. dövlət müəssisələrinin dövlət nəzarətində saxlanılmalı olan əsas fəaliyyətini müəyyənləşdirməklə, əsas fəaliyyətə uyğun olmayan digər fəaliyyətin özəl sektora ötürülməsi imkanları;

2.6. bu Sərəncamda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində əldə edilmiş maliyyə vəsaitinin istifadə istiqamətlərini müəyyənləşdirərək, həmin dövlət müəssisələrinin təşkilati hüquqi formasının dəyişdirilməsi, özgəninkiləşdiriləcək hissələri və dövlət iştirak payının hissəvi satışı üsulları, habelə bununla əlaqədar mövcud normativ hüquqi bazanın təkmilləşdirilməsi.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 31 avqust 2023-cü il**

*Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 avqust tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

## Özəl investisiyaların cəlb edilməsi nəzərdə tutulan dövlət müəssisələrinin SİYAHISI

**1.** "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyəti.

**2.** Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki:

2.1. "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti;

2.2. "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti.

**3.** "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti.

**4.** "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti.

**5.** Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturuna daxil olan:

5.1. "Azərikimya" İstehsalat Birliyi (Etilen-Polietilen zavodu);

5.2. Karbamid zavodu;

5.3. Metanol zavodu.

# Qarabağdakı qanunsuz rejim buraxılmalı və tərksilah edilməlidir

**"Qarabağdakı qanunsuz rejim buraxılmalı və tərksilah edilməlidir".**

Bunu Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Twitter" hesabında paylaşımında bildirib.

"Azərbaycan Qızıl Aypara Cəmiyyətinin tədarük etdiyi buğda ununun istehsal mənşəyinə görə (Azərbaycan) rədd edilməsi qeyri-qanuni marionet rejimin izlədiyi irqçilikdir. Azərbaycan artıq öz torpağında nəzarətsiz zonaya tolerantlıq göstərə bilməz. Qanunsuz rejim buraxılmalı və tərksilah edilməlidir", – o paylaşımında qeyd edib.

***XQ***

# Xarici diplomat, hərbçi və jurnalistlər Ağdam – Xankəndi yolunda

**Dünən Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, hərbi attaşelər və xarici jurnalistlərin Ağdama səfəri təşkil olunub.**



Türkiyə, Çin, Rusiya, Yaponiya, İsveçrə, Polşa, Çexiya, Bolqarıstan, Rumıniya, Serbiya, Argentina, Kolumbiya, Meksika, Cənubi Koreya, İndoneziya, İsrail, Birləşmiş Ərəb Əmirlikləri, Əlcəzair, Qətər, İraq, İran, Əfqanıstan, Liviya, Fələstin, Ukrayna, Qazaxıstan, Özbəkistan, Belarus, Gürcüstan, Tacikistan daxil olmaqla 50-dən artıq ölkənin, Birləşmiş Millətlər Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, TÜRKPA və digər qurumların 60-dək təmsilçisi, xarici jurnalistlər Azərbaycan Qızıl Aypara Cəmiyyətinin ərzaq yüklərinin yerləşdi-



yi məntəqədə vəziyyəti canlı izləmək üçün Ağdam–Xankəndi yoluna gəliblər.

### Xankəndiyə yol açıqdır

Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev diplomat, hərbçi və jurnalistlərlərdən ibarət heyətə mövcud vəziyyət barədə ətraflı məlumat verib: "Biz diplomatik korpusun nümayəndələri ilə avqustun 15-də Ağdam–Xankəndi yolunun texniki imkanları və çatdırılma qabiliyyəti ilə yerində tanış olmuşduq. Hələ o zaman diplomatik korpusun nümayəndələri bir daha şahid oldular ki, Ağdam–Xankəndi yolunun böyük ötürücülük qabiliyyəti var və bu yol daha səmərəlidir. Bu yol düzənlik ərazidən keçərək Azərbaycanın əsas hissəsi ilə Xankəndi şəhərini və Qarabağın digər bölgələrini əsaslı şəkildə əlaqələndirmək imkanlarına malikdir.

Təəssüflər olsun ki, Ermənistan və onun Azərbaycanın Qarabağ bölgəsində yaratdığı, bu günə qədər də dəstəkləməyə davam etdiyi qondarma kriminal rejim tərəfindən yenə də məqsədyönlü şəkildə siyasi manipulyasiyalar, siyasi möhtəkirlik məqsədilə bu yolun açılmasına imkan verilmir".

Prezidentin köməkçisi daha sonra qeyd edib ki, Ağdam–Xankəndi yolunun fəaliyyətdə olması və bu marşrutla istənilən yüklərin erməni sakinlərin yaşadıqları yerlərə qısa müddətdə və rahat çatdırılması imkanı Azərbaycan tərəfindən dəfələrlə bəyan edilmişdir: "Bu yoldan bu şəkildə imtina edilməsini biz yalnız rasizm və diskriminasiya kimi qiymətləndirə bilərik. Yoldan bu formada imtina yalnız və yalnız rasizmdir. Azərbaycan yolları açaraq reinteqrasiya prosesini başlamaq niyyətindədir.

Bu reinteqrasiya prosesinin tərkib hissəsi olaraq Azərbaycan Qarabağda yaşayan erməni sakinlərin hüquqlarını və təhlükəsizliyini, eyni zamanda, onların öhdəliklərini ölkə Konstitusiyası və beynəlxalq sənədlər əsasında təmin etməyə hazırdır. Amma görürük ki, onlar yol mövzusunu məqsədyönlü şəkildə siyasi spekulyasiya və siyasi manipulyasiya mövzusuna çeviriblər. Ermənistan tərəfindən də məqsədyönlü şəkildə bu siyasətə dəstək verilir".

### Ermənistanın məqsədi separatçı rejimi yaşatmaqdır

Prezident Administrasiyasının şöbə müdiri beynəlxalq heyətə bildirib ki, Ermənistan Azərbaycan ilə razılaşdırmadan demonstrasiya və populizm məqsədilə müxtəlif yük maşınlarını Azərbaycanla sərhədə, yəni "Laçın" sərhəd-keçid mıəntəqəsinə gətirmişdir: "Dünən erməni lobbisinin tərəfdarı və təsiri altındakı bəzi korrupsioner Avropa siyasətçiləri bu teatr xarakteri daşıyan dramın tərkib hissəsi olaraq Azərbaycan sərhədinə doğru gəlmişlər. Belə addımların heç bir mənası yoxdur. Bu şou xarakterli addımlardansa, real məsələləri yerində həll etmək lazımdır. Azərbaycan öz ərazisində hansısa boz zonanın olmasını qəbul etməyəcək.

Kimlərsə düşünürsə ki, onlar mövcud şəraiti olduğu kimi davam etdirəcəklər və bu separatçı statustda yaşamağa davam edərək qeyri-qanuni rejimin mövcudluğunu təmin edəcəklər, bu, baş verməyəcək. Azərbaycan heç bir halda buna dözməyəcək. Onların bu yalançı humanitar şousunun əsas məqsədi ondan ibarətdir ki, əsl niyyətlərini və xislətlərini gizlətsinlər. Əsl niyyətləri isə vaxtilə işğal altında olan Azərbaycan ərazilərində yaratdıqları qondarma, qanunsuz rejimin yaşamasını təmin etməkdir və bunun üçün müxtəlif bəhanələrdən istifadə edirlər. Yüklərin qəbul edilməməsinə görə məsuliyyət qondarma rejimin və Ermənistanın üzərinə düşür".

### Görünən dağa nə bələdçi...

Verilən məlumatdan və xarici heyətin məntəqədə öz gözləri ilə görüb müşühidə etdiklərindən belə bir nəticə hasil olub ki, Azərbaycanın Qızıl Aypara Cəmiyyəti tərəfindən ərzaq yüklərinin Ağdam–Xankəndi yolunun Əsgəran yolu ilə birləşmə məntəqəsinə gətirilməsi təmin olunmuşdur. Bu yük avtomobillərində 40 tona yaxın un məmulatı var. Amma yenə də rasizm siyasətinin bariz təzahürü olaraq, Xankəndi rejimi havadarlarının təhriki ilə bu humanitar yükün qəbul edilməsinə qarşı çıxış edirlər.

Bu, bir daha onu göstərir ki, burada məqsəd reinteqrasiyaya yox demək və qanunsuz statusu saxlamaq və bu proseslərdən yalnız siyasi manipulyasiya məqsədləri üçün istifadə etməkdən ibarətdir. Beynəlxalq ictimaiyyətin nümayəndələri, Azərbaycanda akkreditə olunmuş dilopmatik korpusun nümayəndələri bir daha görürlər ki, burada yalançı təbliğat siyasəti aparılır.

### Siyasi oyunlar və təhdidlər qəbuledilməzdir

Jurnalistlərə verdiyi müsahibədə bir gün əvvəl Rusiya sülhməramlıları ilə Azərbaycan tərəfinin danışıqlarında bu yüklərin Rusiya sülhməramlılarının maşınlarına daşınaraq, onlar vasitəsilə aparılması məsələsinin müzakirə mövzusu olduğunu vurğulayan Hikmət Hacıyev deyib: "Dünən KİV-lərdə və sosial şəbəkələrdə olan məlumatlar da göstərdi ki, təşkil olunmuş aksiyalar vasitəsilə buna mane olmağa cəhd göstərirlər.

***(ardı 5-ci səhifədə)***

# Qarabağdakı separatçı rejim gömülür: Arutyunyan "kaput"

*(əvvəli 1-ci səhifədə)*

Qarabağdakı separatçı rejimin rəhbəri Arayik Arutyunyan tutduğu oyuncaq "prezident" postundan uzaqlaşmaq qərarına gəlib. O, yaydığı məlumatda bildirib ki, bu gün istefa ərizəsini təqdim edəcək. Hər halda, uşaq oyunu oynamır. Hərçənd, nəzərə alsaq ki, ermənidir, ondan hər şey gözləmək olar.

Ancaq gəlin gözləməyək. Həm də ona görə ki, Arayik özünün "Facebook" səhifəsində bunları yazıb: "Dünyadakı hazırkı qeyri-sabit geosiyasi vəziyyətin, regional proseslərin və hadisələrin proqnozlaşdırılan inkişafı, Qarabağda və ətrafında baş verən hadisələr, bölgədəki daxili siyasi və sosial atmosfer birbaşa yanaşmaların və addımların dəyişdirilməsi, çeviklik nümayiş etdirilməsi zərurətindən xəbər verir. Yuxarıdakılar naminə Qarabağda məndən başlayaraq əsas simaları dəyişmək lazımdır".





Göründüyü kimi, Arayik çox gendən gəlir. Çalışır ki, istefası, belə demək mümkünsə, urvatlı olsun. Əlbəttə, o, çoxdan rədd olub getməli idi. Onun və illərdir təmsilçiliyini apardığı separatçı rejimin tarixin arxivinə gömülməsinin vaxtı yalnız indi çatmayıb.

Arayikin istefası tamamilə gömülmənin ayaq səsləridir. Şübhəsiz, bu səslər getdikcə artacaq, mümkündür ki, daha isterik mərhələyə də qədəm qoysun. Hazır olmalıyıq. Nəzərə alaq ki, separatçı rejimdə isteriya onsuz da başlayıb. Nəinki separatçı rejimdə, bütövlükdə, Ermənistanda onun müxtəlif təzahürləri ciddi şəkildə görünməkdədir. İndi bir qədər də artacaq. Bəli, Azərbaycan Qarabağdakı separatçılıq çənbərini daraldır. A.Arutyunyanın qlobal obraz qazandırmağa çalışdığı istefa qərarı elə bunun nəticəsidir. Ancaq separatçıbaşının postunu tərk etmək qərarı suallar doğurur.

**Birincisi,** Arayikin öz taleyi necə olacaq? O, əlini-qolunu sallayıb Qarabağda qalacaq, yoxsa bölgəni tərk edəcək? Nəzərə alaq ki, Arutyunyanın barəsində Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən cinayət işi açılıb. O, müharibə cinayətlərində təqsirli bilinir və axtarışdadır.

**İkincisi,** bildirdik ki, A.Arutyunyanın istefa qərarı Azərbaycanın təzyiqi nəticəsində separatçı rejimdə formalaşmış aqoniya ab-havasının nəticəsidir. Bəs, o, getdikdən sonra nə olacaq? Nəzərə alaq ki, Qarabağda şarlatanlar az deyil. Böyük şarlatan isə Ruben Vardanyandır. O, bölgədə oturub Ermənistanda seçki fəallığına çağırır. Bu məxluqun dedikləri elə təsəvvür formalaşdırır ki, "Qarabağ kartı" ilə bütövlükdə Ermənistanın ictimai-siyasi industriyasında oynamaq istəyənlər var və beləlləri vaxtilə mövcud olmuş Koçaryan-Sarkisyan xunta rejiminə oxşar quruluşu yaratmaq niyyətindədirlər. O quruluşu ki, Rusiyadan idarə olunurdu...

Ümumən suallar çoxdur. Amma Arutyunyanın istefa qərarını elan etməsi ilə paralel olaraq, bir hadisə də baş verdi. Separatçıbaşı R.Vardanyandan sonra "dövlət naziri" oyuncaq postuna gətirdiyi Qurgen Nersisyanı vəzifəsindən uzaqlaşdırdı. Onun yerinə Samvel Şahramanyanı təyin etdi. Bu isə o deməkdir ki, Arayikin gedişindən sonra bölgədə hakim mövqe Samvelə məxsus olacaq. Mövcud ssenaridən belə görünür ki, Ruben Vardanyan oyunbazlığı meydan tanımayacaqdır. Daha bir məqama diqqət yetirərək bildirək ki, A.Arutyunyanın "Facebook manifesti"ndən gəlinən qənaət var: Gedən təkcə o olmayacaq. Deməli, "təmizləməni" Samvel reallaşdıracaq.

***

Gələk Samvel Şahramanyanın üzərinə. A.Arutyunyan bildirib: "Samvel Şahramanyanı seçərkən onun dürüstlüyünü, çevikliyini, müxtəlif məsul vəzifələrdə təcrübəsini və həm milli təhlükəsizlik, həm də dövlət idarəçiliyi ilə bilavasitə bağlı biliyini nəzərə aldım". Əvvəlki "dövlət naziri" Q.Nersisyana gəlincə: "Qurgen Nersisyana minnətdarlığımı bildirirəm və qeyd etmək istəyirəm ki, onun 44 günlük müharibə zamanı, ondan sonrakı dövrdə və blokada müddətindəki fəaliyyətinin dövlət üçün əhəmiyyəti əvəzsizdir".

Arayik S.Şahramanyanı ümumi sözlərlə dəyərləndirirsə, vəzifədən uzaqlaşdırdığı Q.Nersisyanın şəninə təriflər yağdırır və bu zaman 44 günlük müharibədən söz açması maraq doğurmaqdadır. Belə başa düşmək mümkündür ki, haqqında söz açdığımız "təmizləmə" müharibə ilə bağlı şəxslərin uzaqlaşdırılması hesabına aparılacaq. Bu isə həm də o deməkdir ki, meydanda Azərbaycanın antipatiya bəsləmədiyi şəxslər qalacaq.

Diqqət yetirək, S.Şahramanyan Azərbaycan təmsilçiləri ilə Qarabağın erməni icmasının nümayəndələrinin bu ilin martında Rusiya sülhməramlılarının Xocalıdakı qərargahında baş tutmuş yeganə görüşünün iştirakçısıdır. O görüşün ki, davamı olmadı. Daha doğrusu, Qarabağdakı separatçı rejim buna imkan vermədi. Deməli, Şahramanyanın missiyası yarımçıq qaldı.

Yada salaq ki, 1978-ci il təvəllüdlü S.Şahramanyan Qarabağdakı separatçı rejimin "Təhlükəsizlik şurasının" katibi idi. Sözügedən görüşlə bağlı Ermənistan parlamentinin müxalifətçi deputatı Tiqran Abramyan həmin vaxt bildirmişdi ki, Samvel danışıqlar prosesində o qədər təcrübəsi olmasa da, "sərtləşmiş", böhran vəziyyətlərində effektiv hərəkət etməyi bacaran təhlükəsizlik xidməti generalıdır: "Amma problem onun şəxsiyyətində deyil, danışıqlar aparan şəxs kimi yanaşmalarında yer alan siyasət və qərarlardadır. Əminəm, Şahramanyan bilir ki, o, mina sahəsinə kombinezon və avadanlıqsız daxil olub və hansısa ehtiyatsız addım partlayışa səbəb ola bilər".

T.Abramyanın bu fikirlərinə, eləcə də S.Şahramanyanın, necə deyərlər, kölgədə qalmış fiqur olması reallığına diqqət yetirərək deyə bilərik ki, indiki situasiyada, o, Qarabağdakı separatçı rejim üçün bir növ, indulgensiya aparatıdır. Yəni, Şamvelin günahların bağışlanılmasına səbəb olması mümkündür. Nəzərə alaq ki, o, ilk cəhdi artıq edib – Azərbaycan nümayəndələri ilə bir masa arxasına əyləşib.

Əlbəttə, S.Şahramanyan həm də "günah keçisi" obrazındadır. Azərbaycanın şərtlərini qəbul edəcək, Qarabağın, o cümlədən, Xankəndinin Azərbaycan ərazisi kimi yerli əhalinin düşüncələrində möhkəmlənməsini üzərinə götürəcək kimsə tapılmalı idi və Samvel hələlik həmin tapıntı təsiri bağışlamaqdadır. Hər halda, Arayikin seçimi separatçı rejimdə bar-bar bağıranlardan biri də ola bilərdi. Amma seçim Bakıdan gəlmiş nümayəndələrin bir masada əyləşməyə razılıq verdikləri şəxsdir. Nəzərə alaq ki, razılığın verilməməsi də mümkün idi.

Deməli, Şahramanyanı separatçılar və Ermənistandakı revanşist-şovinist kəsim üçün arzuolunmazlıq perspektivi gözləyir. T.Abramyan kimilər onun Bakının təmsilçiləri ilə danışıqlar missiyasını mina meydanında gəzmək kimi qiymətləndirmişdilərsə, adam həmin meydanda, obrazlı desək, rahat hərəkət etsə, daha doğrusu, partlamasa, tezliklə ona xain və satqın damğası da vurula bilər. Çünki bu şəxsin təyinatı mahiyyətcə Azərbaycanın üzərində prinsipial şəkildə dayandığı və heç bir güzəşt tanımadığı Qarabağ ermənilərinin reinteqrasiyasının ayaq səslərinin eşidilməsidir.

Sonda onu da deyək ki, Samvel Şahramanyan olmur, qeyrisi olsun, prinsip etibarilə Bakı üçün heç bir fərqi yoxdur. Əsas olan Azərbaycanın şərtlərinin qəbuludur. Nəzərə alaq ki, bu qəbullanma Qarabağda erməni varlığı üçün yeganə şərtdir. Məsələyə mövcud prizmadan yanaşsaq, Arayik Arutyunyanın istefa qərarı həm də həmin varlıq üçün yaşıl işığın yanması ehtimalı deməkdir. Əlbəttə, işıq o zaman yanacaq ki, bölgədəki separatizm tamamilə yox olacaq. Xankəndi, Ağdərə, Xocalı və digər ərazilərimiz Azərbaycanın yurisdiksiyasındakı başqa bölgələr kimi idarə olunacaqdır. İdarə edənin Samvel, Aşot və ya qeyrisi olacağına dair qərar isə Bakıdan veriləcəkdir.

Əslində Hikmət müəllimin də əvvəldə diqqətə çatdırdığımız iqtibasda bildirdiyi bu idi. Yəni, kimsə düşünməsin ki, Arayikin yerinə Samvelin və ya qeyrisinin gəlişi Bakını qane edən variantdır. Cənab Hacıyev ölkəmizin, necə deyərlər, "kosmetik təmirlə" razılaşmayacağının mesajını verir.

***Ə.CAHANGİROĞLU, XQ***

KÖŞƏ YAZISI

# Zaxarova nə demək istəyir?

## *Öz cəzandır, çək, Paşik!*

**Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova əlində tutduğu kağız parçasından aydın şəkildə oxudu və bildirdi ki, Laçın dəhlizindəki mövcud vəziyyət Qarabağın Ermənistan tərəfindən Azərbaycan ərazisi kimi tanınmasının nəticəsidir. Bu tanınma 2022-ci ilin oktyabrında və 2023-cü ilin mayında Avropa İttifaqının himayəsi altında iki ölkə liderlərinin iştirakı ilə keçirilmiş sammitlərin yekunlarına əsasən qeydə alınıb.**



**Əvəz RÜSTƏMOV**
**evez.rustemov@gmail.com**

M.Zaxarova onu da dedi ki, hazırkı məqamda Rusiya özünün bölgədəki hərbi kontingentinin vəzifəsini Ermənistan tərəfindən Qarabağın Azərbaycana məxsusluğunun tanınması nəticəsində yaranmış yeni şərtlər əsasında, Qarabağ ermənilərinin hüquq və vəzifələrinin təminatı, o cümlədən, Bakı–Xankəndi birbaşa dialoqunun yaradılması kontekstində görür və yer üzündə mümkün olan bütün vasitələrdən istifadə edir ki, bunlar reallaşsın.

Bəli, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Ermənistan baş naziri Nikol Paşinyanı Qarabağdakı humanitar böhrana görə ittiham edir. O, indiki durumu Nikolun Azərbaycanın ərazi bütövlüyünü tanıması ilə əsaslandırırsa, ortaya belə bir sual çıxır: "Paşinyan Qarabağı Azərbaycan olaraq tanıdığını bildirməsəydi, Zaxarova nə deyəcəkdi?" Söhbət Zaxarovadan getmir. Ümumən, Rusiya tərəfinin hansı addımlar atacağı maraqlı idi. Amma söhbətimiz bu barədə deyil.

İndiki halda Zaxarovanın sözləri böyük dramaturqumuz Cəfər Cabbarlının "Sevil" pyesindəki Balaş obrazına ünvanlanmış xitab kimidir: "Öz cəzandır, çək, Balaş!" Amma Mariya xanım yalnız "Öz cəzandır, çək, Paşik" demir. Onun hədəfi bütövlükdə Ermənistandır.

Əslində, Zaxarova nə demək istədi? Çalışacağıq ki, yazımızda bunu bir qədər obrazlı şəkildə oxucularımıza çatdıraq. Elə Zaxarovanın özünü də obraz kimi götürək. Yəni, Rusiyanın obrazı. Nəzərə alaq ki, bu obraz iki gün öncəki brifinqdə həqiqətləri bacardığı qədər sərt, ancaq diplomatik tərzdə dilə gətirdi. Əlbəttə, o, başqa məqamları da diqqətə çatdıra bilərdi. Görünür, körpüləri tam yandırmaq istəmədi. Əlqərəz, xanım Zaxarova bunları demək istədi: Ermənistan, ümumən erməni xalqı 2018-ci ildə inqilab edib N.Paşinyanı hakimiyyətə gətirəndə səhvə yol verdi. Nikolun demokrat qiyafəsinə bürünüb anti-Rusiya bəyanatlarını alqışlayanda ikinci səhvi etdi. Erməni xalqı üçüncü səhvi Paşinyan "Qarabağ Ermənistandır və nöqtə" bəyanatını səsləndirən zaman onun üçün əl çalanda buraxdı. Paşinyana heç kəs deməmişdi ki, apar başını divara vur. Azərbaycan divar idi, özü də lay divar. Siz ermənilər bunu görməmisiniz. Çünki həmişə bizim kölgəmizdə olmusunuz. Bizim kölgəmizi öz kölgəniz bilmisiniz. Elə sanmısınız ki, böyüksünüz. Siz heç...

Biz siz erməniləri 2020-ci ildə Azərbaycanın əlində qalıb ölməkdən qurtardıq, üçtərəfli Bəyanatın imzalanmasına nail olduq. Bildirdik ki, hər şey həmin sənəd çərçivəsində olmalıdır. Siz isə gedib Avropaya sığındınız. Avropalılar siz erməniləre Qarabağın Azərbaycan ərazisi olduğunu dedizdirdilər! Paşinyan boynunu büküb dedi!

Biz illər ərzində buna yol vermirdik. Hə, sizin yerliləriniz olan Sarkisyan və Koçaryan da köməyimizə çatırdı. Haqlarını vermək lazımdır. Çox həyasız və murdar məxluqdurlar, ancaq əsl erməni, Qafqazdakı erməni obrazının müasir və unikal obrazlarıdır. Baxın, Sarkisyan bir dəfə danışıqlardan tualet adı ilə çıxıb geri dönməmişdi. Özümüzə də təəccüblü gəlmişdi. Xeyli gülmüşdük...

Nə isə 1830-cu ildə bizim Paskeviç sizi bu bölgəyə, o cümlədən, Qarabağa ona görə gətirib ki, sözümüzə baxıb mənafeyimizi qoruyasınız. Murdarlıqlar etmisiniz, ara qarışdırmısınız, yol kəsmisiniz, qətllər törətmisiniz, öz işinizdir. Amma göz yummuşuq... Biz sizə dövlət də verdik. Siz isə bölgəyə gəlişinizdən 188 il sonra bizə dönük çıxdınız. İnqilab elədiniz. İstədiniz demokrat olasınız, dünyada qəbul olunasınız.

Ay axmaqlar, siz bizsiz heç nəsiniz! Avropalılar sizi aldadıb, hələ də aldandığınızı anlamayıb, ağlaşma qurub üstümüzə gəlirsiniz? Heç utanırsınız? Abrınız-həyanız varmı? Kənarda hər zibili qaynadıb quyruğunuz qapı arasında qalanda, yadınıza biz düşürük. Bu qədər yox da... Hə, unutmuşdum axı, siz ermənisiniz. Bəs, niyə demokratik ölkə olmaq istədiniz? Nəyinizə lazım idi demokratiyanı qapısı, pəncərəsi olmayan kirli pasılı otağınızın bacasından içəri salmaq? Görürsünüz, demokratiyanın havası sizə düşmədi. Yaxşı hava da ziyanlıdır. Sizin nəfəsiniz pisliyə, üfunətli qoxuya öyrəşib axı... Çox səhvlər etmisiniz. Yenə də edirsiniz. Yenə gedib fransızlara, almanlara sığınırsınız. Dünyadakı başıboş ermənilər Okampo, Mendes və başqa dələduzları tutub sizin mənafeyinizi qorumaqla bağlı çağırışlar edirlər. Xeyri olurmu? Olmayacaq!

Siz axı, nə bilirsiniz BMT nədir? Kimdi sizi orada dinləyən? Durub BMT-də məsələ qaldırırsınız! Anlayın ki, bizsiz sizin qaldırdığınız məsələ lakmus kağızı kimi bir şeydir. Üzünüzə də baxan yoxdur. Ölkənizə demokratiyanı sizi bizdən qoparmaq üçün gətirdilər. İndi onlar tırları düzüblər Laçına. Şou yaradırlar. 44 günlük müharibə vaxtı yaratdıqları şounun köməyi oldumu? Azərbaycan gəlib Şuşada oturdu. Şuşi deyirdiniz ha, bax o Şuşada. Yox bir Şuşi!!!

İndi Xankəndidəsiniz. Azərbaycan əsgərinin Şuşadan dayanıb üstünüzə tüpürməyi bəs edəcək ki, oradan da qaçasınız. Qorxmaz, məğrur erməni xalqı. Özünüz barədə mif yaradırsınız. Ay sarsaqlar, siz necə qorxmazsınız, necə mərdsiniz ki, ondan-bundan kömək umursunuz. Ömrü boyu da ummusunuz.

Nə isə çox uzatmaq istəmirəm. Dəqiqəbaşı zənciri qırmış it kimi üstümüzə gəlməyin. Bezmişik sizin şikayətlərinizdən. Günahkar ola-ola şikayət də edirsiniz. Gedin, şikayətlərinizi çox sevdiyiniz avropalılara, amerikalılara edin. Biz öz bildiyimizi edəcəyik. Biz yenə də sizi qorumaq istəyirik. İstəyirik ki, Qarabağdakı ermənilər orada qalsınlar, yaşasınlar. Sonrasına baxarıq. Təkliflər də veririk ki, necə yaşaya bilərlər. Əvvəlki vaxt deyil. Azərbaycan da əvvəlki Azərbaycan deyil. Vəssalam!

# Azərbaycan XİN Nikol Paşinyana cavab verdi

**Avqustun 31-də hökumət iclasında çıxışı zamanı növbəti dəfə Azərbaycanı "soyqırımı" həyata keçirməkdə təqsirləndirən baş nazir Nikol Paşinyanın heç bir əsas olmadan bu kəlməni bu qədər ucuzlaşdırması Ermənistanın məsuliyyətsiz manipulyasiya fəaliyyətinin təzahürüdür.**

Bu barədə Ermənistanın baş nazirinin həmin iclasda səsləndirdiyi iddialara dair Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) şərhində bildirilib.

Ehtiyac olacağı təqdirdə erməni sakinlərə yüklərin çatdırılması üçün Ağdam–Xankəndi yolundan istifadə ilə paralel olaraq, Laçın yolundan hərəkətin intensivləşməsi təklifinə qarşı çıxan ermənilərin bəzi nümayəndələrinin təxribatçı addımlarına etiraz etmək əvəzinə, Azərbaycanın erməni sakinləri ac saxladığı ilə təqsirləndirən baş nazirə xatırlatmaq istərdik ki, hazırda, Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən Ağdam–Xankəndi istiqamətinə göndərilmiş yük avtomobilləri ərazidə Xankəndiyə keçidi gözləyir. Erməni tərəfinin əgər həqiqətən aparılan yüklərə ehtiyacı olsaydı, onlar sülhməramlı kontingent tərəfindən yolun bloklanmasını tələb edərək bu yüklərin əraziyə keçidinə mane olmazdılar. Erməni sakinlərin yanaşması bir daha göstərib ki, Ermənistanın və erməni sakinlərin bəzi nümayəndələrinin "humanitar vəziyyət"lə bağlı iddiaları siyasi manipulyasiyadan başqa bir şey deyil.

Laçın yolunun birtərəfli qaydada açılması və erməni sakinlərin qovulması planları barədə iddiaya gəldikdə bildirmək istərdik ki, hazırda erməni sakinlərin "Laçın" dövlət sərhəd-buraxılış məntəqəsindən hər iki istiqamətdə keçidinə şərait yaradılır və Azərbaycan tərəfinin bölgədə etnik təmizləmə siyasəti həyata keçirməkdə təqsirləndirilməsi absurddur.

Görünür, 30 ilə yaxın müddətdə nəinki işğal etdiyi Azərbaycan ərazilərindən, hətta 1980-ci illərin sonunadək indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılara qarşı soyqırımı, kütləvi qırğınlar və etnik təmizləmə həyata keçirən Ermənistan tərəfi hər bir dövlətin eyni yanaşma tətbiq etdiyini və eyni anlayışa sahib olduğunu düşünür.

Azərbaycanın ərazi bütövlüyünü sözdə dəstəkləyən Ermənistanın baş naziri yaxşı olardı ki, Qarabağ bölgəsində yaşayan erməni əsilli sakinlərin Azərbaycan qanunvericiliyi çərçivəsində reinteqrasiya siyasətini də dəstəkləsin və Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə qarşı müdaxilələrdən çəkinsin.

Ümidvarıq ki, Ermənistan tərəfi postmünaqişə dövründə bölgədə formalaşmış reallıqları düzgün qiymətləndirəcək və sülhün bərqərar olunması üçün Azərbaycanla danışıqlarda konstruktiv mövqe sərgiləyəcək", – deyə XİN-in şərhində vurğulanıb.

***Q.QASIMOV, XQ***



# Fransa – qəddarlıq simvolu

## Zorakılığı dövlət siyasətinə çevirən rəsmi Paris Cənubi Qafqazda insan haqlarından dəm vurur

(əvvəli 1-ci səhifədə)

“Pensiya islahatı” na qarşı kütləvi nümayişlərdən cəmi iki həftə sonra – 2023-cü il iyulun 27-də Fransa cəmiyyəti yenidən kükrədi. Səbəb on yeddi yaşlı yeniyetmə Nahel Merzukun polis tərəfindən öldürülməsi oldu. Polis onu nəqliyyat vasitəsini təyin olunmamış yerdə saxladığına görə güllələmişdi. Doğrudanmı, bu cəmiyyət qısa müddətdə hökumətin minimum pensiya yaşını iki il artırlılması ilə bağlı “islahatı”na genişmiqyaslı hərəkatdan polis zorakılığına üsyana, qiyama qədər yol keçdi?”.

Fransanın üzləşdiyi bu acınacaqlı sosial-psixoloji mənzərəni ABŞ-ın “The Brooklyn Rail” jurnalında müəllif Çarlz Rivin təsvir edir. XXI əsrin Fransa dövləti zorakılığa və qəddarlığa söykənir. “Caliber.Az” saytının ingiliscədən tərcüməsini verdiyi həmin məqalənin qısa ixtisar və yüngül imrovizə ilə oxucuların diqqətinə çatdırırıq.

* * *

Bəli, Nanter şəhərində polisin Əlcəzair əsilli 17 yaşlı gənci qətlə yetirməsi, sözsüz ki, milli məsələdir. Nahel başqa irqə və millətə mənsub olduğu üçün öldürülüb və bu fakt Fransa hakimiyyətinin əsl simasını açıb göstərir. Bu, doğrudan da, belədir. Müəllif Riv hakimiyyətin “sevimli alətinə” çevrilmiş zorakılığın və qəddarlığın fransızsayağı anatomiyasına nəzər yetirir: “Ondan başlayaq ki, “pensiya islahatı”na qarşı başlanan hərəkat birdən-birə dayandı. Həmkarlar ittifaqlarının çağırdığı nümayişlər silsiləsinin ardınca tətillər seyrəlməyə, mübarizənin perspektivi tədricən azalmağa doğru getdi. Nəhayət, gücsüzlük hissi hər şeyə qalib gəldi. İştirakçıların kreativliyi, əzmli kollektivlərin şəbəkəsinin formalaşması, tələbələrlə fəhlələr arasında yaranan əlaqə, cəmiyyətin böyük kəsiminin zəhmətkeşlərin halına yanması kimi amillər etirazların dinamikasını saxlamağa və mübarizənin hücum səviyyəsinə çatması üçün kifayət etmədi. Ümumi əhvalı bu ifadə ilə yekunlaşdırmaq olardı: “Biz uduzduq, amma onlar qələbə çalmadılar. Gec ya tez mübarizəyə yenidən başlayacağıq”.



Əslində, Fransanın siyasi işteblişmentinə və onun təbliğatçılarına cəmiyyətdə artan ikrah hissinin, müxalifliyin bütün formalarına qarşı güclənən repressiyaların, ümumi narazılığın, sosial yoxsulluğun və artan sinfi bərabərsizliyin, ədalətsizliyin fəhlə məhəllələrindəki gənclər arasında polis zorakılığına qarşı qiyam partlayışı üçün bütün şərtləri yetişdirdiyini yazan analitik polis zorakılığının və irqçiliyin, sinfi münaqişələrin təzahürlərinin Fransada uzun tarixə malik olduğuna diqqəti yönəldir: “Fransa müstəmləkəçilik irsini və müharibədən sonrakı dövrün intihabını pis əxz eləyib. Lap bu yaxınlarda polis irticası “sarı jiletlilər”in hərəkatı ilə bağlı ön plana qayıtdı. Etiraz aksiyalarının 3 mindən çox iştirakçısına polis tərəfindən xəsarət yetirildi. Hazırda zorakılıq, ətraf mühitin çirkləndirilməsi ilə mübarizə daxil olmaqla, müxalifliyin bütün formalarına qarşı yönəldilib. Misal üçün, bu yaxınlarda Fransanın şimal-qərbindəki Sent-Solin şəhərində hökumətin su ehtiyatlarının özəlləşdirilməsi layihəsini bloklamaq üçün səfərbər olunmuş 30 min aqrarçı hərbiləşdirilimiş polis gücləri ilə toqquşmalı oldu. Nəticədə onlarca insan yaralandı, iki gənc isə ağır vəziyyətdə xəstəxanaya çatdırıldı. Bu hadisəyə şəhərli məmurlardan birinin reaksiyası maraqlıdır: “Simvolik planda, bu, 2005-ci ildə baş verənlərin çərçivəsindən xeyli kənara çıxmışdı”.

* * *

“The Brooklyn Rail” jurnalının əməkdaşı haqlı olaraq qeyd edir ki, dağılmaqda olan sosial dövlət institutlarının yerinə repressiyalar və total nəzarət institutları gəlir: “Bu “evolyusiya” uzun illər boyu müşahidə edilirdi. Repressiyaların gücləndirilməsi ümumi firavanlıq dövlətinin qəsdən və fasiləsiz demontaj olunmasının analoqudur. Bu faktın dərki “sarı jiletlilər”in üsyanında və ondan sonrakı pensiya “islahatı”na qarşı mübarizədə mərkəzi rolu oynadı. Nə qədər qəribə səslənsə də, orta əsrlərdə olduğu kimi, müasir Fransada da polisi burjuaziya sinfi, eləcə də, əlindəki azı itirməkdən qorxan lümpen proletariat dəstəkləyir. Açıq zorakılıq bu dövlətin daha çox söykəndiyi idarəetmə üsuluna çevrilməkdədir. Küçələrə çıxan gənc insanların böyük əksəriyyətini yaşı 12-17 arasındadır. Polis 3 mindən çoxunu həbs edib, 1300 yeniyetmə qısa müddətə azadlıqdan məhrum edilib, 7 mindən yuxarı etirazçı isə uzunmüddətli həbslərə məruz qalıb. Bundan sonra Makron özünün telemüraciətində ailələri “öz övladlarına nəzarət etməyə” çağırmasının ölkədə yaşanan çılpaq həqiqətə heç bir aidiyyatı yox idi”.

Fransa cəmiyyətinin bu gün yaşadığı əsl həqiqətlərə işıq salmağa çalışan müəllif fikirlərini belə yekunlaşdırır: “ Belə davam edərsə, ümumi vəziyyət sabitləşməyəcək, iqtisadiyyatın sarı siyasəti daha çox fəhlə sinfinin mənafeyinə toxunacaq, gənclərin təcrid olması davam edəcək və güclənəcək. İqtidarın siyasi təmsilçilik formaları getdikcə özünü gözdən salacaq, parlament demokratiyası isə daha çox avtoritar mahiyyət kəsb edəcək”.

* * *

Fransada insan hüquqlarının mütəmadi şəkildə tapdandığını, etnik ayrı-seçkiliyin baş alıb getdiyini və bu zəmində tez-tez baş verən xoşagəlməz hadisələrə bütün dünya şahidlik edir. Bunu da, demək olar ki, Makron hakimiyyəti səriştəsiz, qeyri-demokratik fəaliyyəti səbəbindən çalxalanmaqdadır.

Tarixdən Fransanın uzun müddət müstəmləkədə saxladıqları əlcəzairlilərə necə divan tutduğunu bilirik. Kənar müşahidəçi düşünə bilər ki, Parik kolonial siyasətini bu gün də davam etdirir. Aropanın ən nüfuzlu tribunalarından insan haqlarından dəm vuran, demokratiyanı əllərində bayraq edən, başı daxili problemlərinə qarışan, antidemokratik idarəetməyə keçən rəsmi Paris bundan sonra hansı üzlə Cənubi Qafqazda bir millətin öz müqəddaratını təyin etməsindən, təhlükəsizliyinə təminatdan danışa bilər?

Fransanın ən uğursuz prezidenti kimi tarixə düşməyə namizəd Emmanuel Makron Marsel şəhərində erməni icması ilə görüşündə ölkəmizin əleyhinə qərəzli fikirlər səsləndirdi. Bu zaman daşnakların qarşısında xoruzlanaraq özünü elə göstərməyə çalışırdı ki, sanki Cənubi Qafqazda baş verən hadisələrə özəl təsir gücünə malikdir.

Bu minvalla Fransa dünyada keçmiş nüfuzunu tamamilə itirmək üzrədir. Birmənalı şəkildə deyə bilərik ki, bu ölkənin insan haqlarından, söz və mətbuat azadlığından, sərbəst toplaşmaq hüququndan və ümumiyyətlə, demokratiyadan danışmağa haqqı yoxdur. Paris başda olmaqla böyük şəhərlərinin küçələri zibilxananı xatırladan Fransa hələ içindəki və çölündəki çox çirkablardan qurtulmalı olacaq.

***Hazırladı:***
***İmran BƏDİRXANLI,***
***XQ***

# Bu, Fransanın Azərbaycana “səlib yürüşü”dürmü?

## Separatçıları dəstəkləyənlərin təxribatı nəticə verməyəcək

(əvvəli 1-ci səhifədə)

Sirr deyil ki, uzun əsrlər boyu Afrikada sümürgəçiliklə məşğul olan, “qara qitə”dən indi də əl çəkməyən Fransa hazırda orada ciddi problemlərlə üzləşib və ağır duruma düşüb. Paris Afrika qitəsi ilə yanaşı dünyanın bir sıra bölgələrində, o cümlədən, Cənubi Qafqazda pozuculuq istiqamətində fəaliyyətindən əl çəkmir və situasiyanı gərginləşdirmək istiqamətində əməllərini davam etdirir. Fransa hazırda açıq və ardıcıl ermənipərəst siyasət yürüdür. Bu ölkə Avropa İttifaqındakı imkanlarından və başı Ukraynada müharibəyə qarışmış Rusiyanın zəifləməsindən istifadə edərək Ermənistana hərbiləşmiş missiyanın göndərilməsinə müvəffəq oldu. Eyni zamanda, Paris diplomatik praktikada görünməmiş addıma imza atdı: Ermənistandakı səfirlik yanında əlavə hərbi attaşe təyin etdi. Həmin hərbi attaşenin əsas missiyası Ermənistana Fransanın öldürücü silahlarının tədarükünə nəzarət etməkdir. Fransa bu kimi addımlarla danışıqlar prosesinə zərbə vurdu və Cənubi Qafqazda sülh prosesinə faktiki olaraq, kobud müdaxilə etdi. Görünən odur ki, Fransa destruktiv planlardan əl çəkməyib və indi daha böyük planlar qurur.

Fransanın əvvəllər də ermənipərəst siyasət yürütdüyü heç kəsə sirr deyil. Ancaq “Beşinci Respublika” əvvəllər ATƏT-in Minsk qrupunun həmsədri olduğu üçün ilk dövrlərdə iki ölkə arasında balansı az-çox qorumağa çalışırdı. Həm də Fransanın əvvəlki dövlət başçıları – Jak Şirak, Nikola Sarkozi, Fransua Olland indiki prezident Emmanuel Makron qədər birtərəfli mövqe tutmurdular. İndi isə rəsmi Paris Azərbaycana total hücuma keçib. Qeyd etdiyimiz kimi, bunun da əsas səbəbi Azərbaycanın 44 günlük Vətən müharibəsindəki tarixi Zəfəri, müharibədən ötən 3 ilə yaxın dövr ərzində yeni-yeni qələbələr qazanmasıdır. Onlar bunu, sadəcə olaraq, qəbul edə bilmirlər.

İndi isə Azərbaycanın Qarabağ iqtisadi rayonunun erməni vətəndaşların yaşadığı hissəsində suverenliyini bərpa etmək istiqamətindəki ardıcıl səyləri, öz vətəndaşlarının ölkənin sosial-iqtisadi, ictimai-siyasi həyatına yenidən inteqrasiyası yolunda inamla irəliləməsi Fransanı lap özündən çıxarıb. Başda prezident E.Makron, xarici işlər naziri Ketrin Kolonna olmaqla, Fransa rəsmiləri sanki ermənilərdən daha artıq erməni olmaq uğrunda yarışa çıxıblar.

E.Makron avqustun 29-da Prezident İlham Əliyevə zəng edib. Telefon danışığı zamanı regiondakı vəziyyət, Ağdam–Xankəndi və Laçın–Xankəndi yollarının açılması məsələsi müzakirə olunub. Makronun qaldırdığı məsələlər yetərincə cavablandırılıb və Prezident İlham Əliyev tərəfindən Azərbaycanın mövqeyi tam ifadə olunub. Dövlətimizin başçısı bildirib ki, Ağdam–Xankəndi yolunun istifadəsinə Ermənistan və onun Azərbaycanın Qarabağ bölgəsində yaratdığı və dəstəklədiyi qondarma rejim tərəfindən məqsədyönlü şəkildə süni əngəllər yaradılır, bundan siyasi manipulyasiya məqsədilə istifadə edilir.

Dövlətimizin başçısı qeyd edib ki, Ermənistan və qondarma rejim Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyi ilə Ağdam–Xankəndi yolu ilə yüklərin daşınması barədə əldə olunmuş ilkin razılaşmadan imtina edib. Həmçinin Ermənistan rəhbərliyi Azərbaycan tərəfi ilə razılaşdırmadan dövlət sərhədi istiqamətində humanitar təyinatlı olduğunu iddia etdiyi yüklər gətirib ki, burada məqsəd siyasi möhtəkirlikdir.



***

Fransanın Azərbaycanla bağlı hələlik son təxribatçı addımı paytaxt Parisin meri Ann İdalqonun rəhbərlik etdiyi, bir sıra regionların və departamentlərin rəhbərlərinin daxil olduğu dəstənin Qarabağa “humanitar yardım” aparmağa cəhd etməsidir. Ona görə təxribatçı addım yazırıq ki, avtomobil karvanının indiki şəraitdə Qarabağa daxil olmasının qeyri-mümkünlüyü prosesdə iştirak edən hər kəsə gün kimi aydın idi. Onlar bunu bildikləri halda öz aləmlərində ölkəmizi ləkələmək, qarşıdakı dövrdə atmağa hazırlaşdıqları hansısa çirkin addımlara zəmin yaratmaq üçün Azərbaycan sərhədinədək gəldilər. Bu addım fransız rəsmilərin xəbis niyyətlərinin daha bir göstəricisi oldu.

Dəstənin üzvləri Gorusda dayanaraq, orada mətbuat konfransı keçirdilər. Onlara Qarabağdan videokonfrans vasitəsilə hələ işğal dövründə heç bir ölkənin tanımadığı, tanımağa cürət etmədiyi qondarma “dqr”in başçısı Arayik Arutyunyan da qoşuldu. Maraqlıdır, çoxmillətli Fransanın tərkibində hansısa etnik azlığın, məsələn sayı 1,4 milyon nəfər olan elzaslıların və lotaringiyalıların, 1,25 milyonluq bretonların, sayı 300 min nəfərə çatan flamandların, 280 min nəfərlik korsikalıların, yaxud 250 minlik katalonların, 140 min nəfərlik baskların müstəqil dövlət yaratmaq istəyinə rəsmi Parisin münasibəti necə olardı? Əlbəttə, ritorik sualdır. Paris bu xalqların azadlıq arzusunu qan gölündə boğardı. Ermənistan, onu dəstəkləyənlər Qarabağ iqtisadi rayonunda 120 min etnik erməninin yaşadığını iddia edir. Halbuki, Qarabağda ən yaxşı halda 20-30 min nəfər yaşayır. Bəs Fransa sayı Qarabağ ermənilərindən qat-qat çox olan xalqlara niyə azadlıq vermir? Niyə yarım milyon kvadratkilometrdən böyük olan ərazisinin bir metrini də güzəştə getmir? “Beşinci Respublika”da ermənilərin də sayı az deyil. Müxtəlif məlumatlara görə Fransa ermənilərinin sayı 500 min nəfərədəkdir. Əgər Fransa ikinci erməni dövlətinin yaradılmasında belə maraqlıdırsa, qoy onu öz ərazisində yaratsın.

Bununla bağlı Prezident İlham Əliyev vaxtaşırı çox məntiqli, tutarlı və sərrast fikirlər səsləndirir. Dövlətimizin başçısı hələ Vətən müharibəsi dövründə – 2020-ci ilin oktyabrın 4-də “Əl-Ərəbiyə” televiziya kanalına müsahibəsində deyib: “Onlar Azərbaycandan əl çəkməlidirlər, onlar regiondan əl çəkməlidirlər. Biz burada öz torpağımızdayıq. Bizim torpağımız işğal olunub. Əgər Fransa Qarabağ üçün öz müqəddəratını təyinetmə istəyirsə, qoy onlar, demək olar ki, sakinlərinin yarısı ermənilərdən ibarət olan Marsel şəhərini onlara versinlər. Qoy onlara müstəqillik versinlər. Qoy Korsikaya, basklara müstəqillik versinlər. Niyə onlar bizdən Qarabağ üçün müstəqillik tələb edirlər? Onların bunu bizdən tələb etməyə nə haqqı var? Onlar bu ittihamları dayandırmalıdırlar”.

***

Qeyd etdiyimiz mətbuat konfransında Ann İdalqo ilə yanaşı, İl-de-Frans regionunun vitse-prezidenti Patrik Karam, Strasburq şəhərinin meri, erməni əsilli Janna Barseqyan və başqaları anti-azərbaycan düşərgəsində birləşib ölkəmizə “hücum ediblər”.

Baş verənlərlə əlaqədar olaraq Fransanın Azərbaycandakı səfiri Ann Buayon dünən Xarici İşlər Nazirliyinə çağırılıb. Görüş zamanı Parisin meri Ann İdalqo daxil olmaqla Fransanın bir neçə şəhərinin rəhbər şəxslərinin müşayiəti ilə “humanitar yük” adı altında “Laçın” sərhəd nəzarət-buraxılış məntəqəsi istiqamətinə nəqliyyat vasitələrinin göndərilməsi və həmin şəxslər tərəfindən Azərbaycana qarşı təxribatçı bəyanatlar səsləndirilməsi ilə bağlı XİN-in etiraz notası Fransa səfirinə təqdim edilib.

Fransa tərəfinin bu addımlarının Azərbaycanın daxili işlərinə birbaşa müdaxilə olmaqla yanaşı, ölkəmizin beynəlxalq hüquqla qorunan suverenliyi və ərazi bütövlüyünə qarşı qəsd olduğu vurğulanıb. Qeyd olunub ki, Ermənistanın yalan və manipulyasiya kampaniyasına alət olan bu təxribatçı əməllər bölgədə vəziyyətin gərginləşməsinə yönələn və Fransa tərəfindən Ermənistanı revanşist mövqeyini davam etdirməyə həvəsləndirən və son günlər daha da intensivləşən addımların növbəti nümunəsidir.

Azərbaycan tərəfi, beynəlxalq humanitar yardımın göndərilməsi ilə bağlı beynəlxalq hüquqi çərçivəyə zidd olaraq nümayişkaranə şəkildə Azərbaycan tərəfi ilə razılaşdırmadan, onun iradəsinin əksinə Azərbaycanın beynəlxalq tanınmış ərazisinə hər hansı bir ad altında yüklərin göndərilməsi cəhdini təxribatçı əməl kimi qiymətləndirib və buna qəti etirazı qarşı tərəfin diqqətinə çatdırılıb.

Azərbaycanın beynəlxalq hüquqla qorunan suverenliyi və ərazi bütövlüyünə qarşı yönələn, regionda beynəlxalq aktorların fəal səyləri ilə irəlilədilən kövrək normallaşma prosesini təhlükə altına alan addımlara son qoyulması Fransa tərəfindən təkidlə tələb olunub.

Göründüyü kimi, ölkəmiz hazırda ermənipərəst dairələrin siyasi təzyiqləri ilə üz-üzədir. Azərbaycan prinsipial mövqeyini ortaya qoyub, geri addım atmaq barədə düşünmür. İndiyədək buna bənzər çox hücumlarla üzləşmiş dövlətimiz dəqiq hesablanmış addımlarla bu təzyiq dalğasını da boşa çıxaracağına əmindir. Son günlər Azərbaycanın müdafiə mövqeyindən intensiv hücum taktikasına keçməsi də məhz bu hədəfə nail olmağa hesablanıb.

***Səxavət HƏMİD, XQ***

### EKSPERT RƏYİ



**Yeganə HACIYEVA,**
**politoloq**

– Parisin anti-Azərbaycan addımları sadəcə, Fransa–Ermənistan müttəfiqliyi çərçivəsində dəyərləndirilməməlidir. Fransanın Azərbaycan üzərinə “gəlməsinin” başqa səbəbləri də var. Azərbaycan Qoşulmama Hərəkatının (QH) sədri kimi Fransanın dünyanın müxtəlif yerlərində yürütdüyü neokolonializm siyasətini ifşa edib. Azərbaycan neokolonializmdən əziyyət çəkən ölkələrin səsinə çevrilib. Ölkəmiz QH çərçivəsində bir sıra təsisatlar formalaşdırıb. Bunlar hazırda işlək təsisatlardır və Afrikaya müstəmləkəçi nəzərlərlə baxan istənilən dövlətin əleyhinədir. Fransa da cari anti-Azərbaycan addımları ilə ölkəmizi “cəzalandırmağa” çalışır. Ermənistandan istifadə etməklə müəyyən təzyiq elementləri formalaşdırmağa cəhd edir.

Digər tərəfdən, Fransa–Azərbaycan münasibətlərində yaşanan gərginlik bu ölkənin Cənubi Qafqazdakı maraqları ilə bağlıdır. Paris şimal və cənub dəhlizlərindən istifadənin təhlükəli olduğu bir zamanda Ermənistandan istifadə etməklə aralıq dəhlizlərdə mövqe əldə etmək istəyir.

Üçüncü məqam isə Makronun özünün şəxsiyyəti ilə bağlıdır. Burada daxildəki erməni diasporunun seçkidə Makrona verdiyi maddi və elektoral dəstəyi də nəzərdən qaçırmaq olmaz. Bu dəstək Makronun qatı ermənipərəst addımlar atmasında mühüm rol oynayır.

# Xarici diplomat, hərbçi və jurnalistlər Ağdam – Xankəndi yolunda




(əvvəli 2-ci səhifədə)

Bu yüklərin bura çatdırılması bir daha Azərbaycanın niyyətinin göstəricisidir. Amma yüklərin qəbul edilməməsi və imtina edilməsinə görə də məsuliyyət tam şəkildə qondarma rejimin və Ermənistanın üzərinə düşür. Onlar da bu manipulyativ prosesdə öz funksiyalarını və rollarını oynamaqda davam edirlər.

Təəssüflər olsun ki, bəzi Qərb media resurslarında bu faktlara və mövcud vəziyyətə yalan şəkildə don geyindirmək cəhdləri də var. Bu prosesdə, eyni zamanda, bəzi korrupsioner Qərb siyasətçiləri də öz rollarını oynamaqdadırlar. Onlar tərəfindən separatizmə dəstək verilməsi və separatçıların yaxşı və pis separatçılara bölünməsi tendensiyalarını da görürük ki, bunlar da qəbuledilməzdir. Bir daha qeyd etmək istərdik ki, Azərbaycanın ərazisində hər hansı bir qanunsuz ərazinin, Azərbaycanın mərkəzi hökumətinin nəzarətindən kənar hər hansı bir ərazinin mövcud olması qəbuledilməzdir".

### Xilas yolu reinteqrasiyadır

Prezidentin köməkçisi xarici media təmsilçilərinə açıqlamasında qeyd edib ki, Azərbaycan xoşməramlı niyyət göstərərək reinteqrasiya prosesi ilə əlaqədar öz fikirlərini təqdim etmişdir. Amma bundan imtinaya görə məsuliyyət tam şəkildə qondarma rejimi təmsil edən müharibə cinayətkarlarının üzərinə düşür: "Orada yaşayan erməni əsilli sadə sakinlər həmin rejimin, bu qanunsuz hərbi xuntanın əsarəti altındadırlar. Onlar öz mövcudluqlarını bu cür aqressiv ritorika ilə, müharibə ritorikası ilə əsaslandırmağa çalışırlar və gördüyünüz kimi, bunların heç bir əsası yoxdur. Yüklər buradadır və ən tez zamanda çatdırılması təmin oluna bilər. Gələcəkdə də hər hansısa yüklərin daşınması üçün Ağdam–Xankəndi yolu bütün texniki imkanlara malikdir.

Bu yaxınlarda başqa bir razılaşma var idi ki, Azərbaycan tərəfinin dəvəti ilə Ağdamda görüş keçirilsin. Bildiyiniz kimi, artıq görüşlərin keçirilməsi üçün Ağdamda müvafiq infrastruktur var. Qarabağdakı erməni sakinlərin nümayəndələri Ağdamda görüşdən də imtina etmişdilər. Ona görə də dialoqdan, təmaslardan imtina edilməsi, yolun açılmasından imtina edilməsi tamamilə qeyri-konstruktiv, aqressiv siyasətin təzahürüdür".

### "Humanitar şou" sülh prosesinə zərbədir

Prezidentin köməkçisi bir daha vurğulayıb ki, "humanitar böhran" mövzusunun əsassız olaraq gündəmə gətirilməsinin məsuliyyəti özünü qondarma rejimin nümayəndələri kimi təqdim edən şəxslərin, həmçinin Ermənistan rəhbərliyinin üzərinə düşür: "Çünki burada Ermənistanın da bilavasitə məsuliyyəti var. Ermənistan özünü bu məsuliyyətdən gizlədə bilməz. Qondarma rejimin bu gün saxlanılması Ermənistanın dövlət büdcəsi vasitəsilə həyata keçirilir. Bu məqsədlərlə 360 milyon dollardan artıq vəsait xərclənir. Ermənistan silahlı qüvvələrinin elementləri hələ də Azərbaycanın Qarabağ bölgəsində mövcudluğunu davam etdirir. Həmçinin, qondarma rejimin də silahlı qüvvələrinin həmin ərazidə mövcudluğu var. Bu da regional sülh və təhlükəsizlik üçün ciddi təhdid olaraq almaqdadır.

Onlar hələ də ərazilərin minalanması prosesini davam etdirirlər, bunlar da Azərbaycan üçün qəbuledilməz faktlardır. Ermənistanın bu kimi əməlləri Azərbaycanın daxili işlərinə qarışmaq və regional sülh və təhlükəsizliyi pozmaq, həmçinin iki ölkə arasında sülh müqaviləsi üzrə aparılan danışıqlar prosesinə çox ciddi bir zərbədir".

Hikmət Hacıyev sonda əmin olduğunu bildirib ki, diplomatik korpusun nümayəndələri gözləri ilə gördükləri bu faktları öz ölkələrinin aidiyyatı orqanlarına çatdıracaqlar: "Bu, ermənilərin və onların bəzi havadarlarının yaratdığı və yaratmağa çalışdığı yalan mühitinin növbəti darmadağın edilməsi faktıdır".

XQ

KÖŞƏ YAZISI

# Erməniçiliyin labüd aqibəti – iflas

**Müstəqil dövlət olmaq bəxtiyarlıq və şərəfdir. Hər insansa gərək ömrü boyu öz xoşbəxtliyinin və şərəfinin keşiyində dura. Böyük istiqlal yoluna 105 il əvvəl çıxmış Azərbaycan bərpadan sonra 32 yaşına çatan müstəqilliyini durmadan yüksəltmək, irəlilətmək, möhkəmləndirməklə yanaşı, onun irticalardan, iftiralardan, bəd nəfəslərdən və kirli caynaqlardan qorunması yolunda da bir an belə sayıqlığını itirmədən ayıq-sayıq olmalıdır. Bu gün dünyanın hansı nöqtəsində, hansı beynəlxalq təşkilatda, irili-xırdalı hansı meydanda, hansı mətbuatda, hansı efirdə Azərbaycanın maraqlarına toxuna biləcək ən xırda səs gəlsə, gərək hər birimiz anındaca cavab verməyə, müdafiəyə qalxmağa hazır olaq. Çünki hamımızın bircə Azərbaycanımız, hamımızın ortaq müstəqilliyimiz var. Vətənə sevgi imandandırsa, Azərbaycana doğru əsən istənilən soyuq küləyə biganə qalmaq da vicdandan deyil!**



Rafael HÜSEYNOV
rafaelhuseyn@gmail.com

Avqustun son günündə Livanda Azərbaycan səfirliyi qarşısında bir topa erməni yenə tərpəşməyə cəhd edib. Səfirliyin inzibati binasının hasarına, divarına həmlə edən və tezcə də oradan kənarlaşdırılan ermənilərin bu qanunazidd hərəkətləri ilə bağlı dərhal Livandakı səfirliyimiz ölkənin Xarici İşlər Nazirliyinə etiraz notası göndərib, söz yox, məsələ hüquqi müstəvidə də araşdırılacaq, zəruri addımlar da atılacaqdır. Ötən ilin sentyabrında da ermənilər səfirliyimizin həndəvərində oxşar hərəkətləri törətmişdilər. O vaxt da yerli polis onları kənarlaşdırmışdı, suyu süzülə-süzülə dağılışmışdılar, indiki kimi elə o vaxt da Livan hökumətinə müvafiq şikayətlər edilmiş, təxirəsalınmaz tədbirlərin görülməsi istənilmişdi. Ermənilərin Azərbaycanın kölgəsini qılınclamaqdan o yana getməyən belə hərəkətlərinin hamısının sonunda elə İkinci Qarabağ savaşında olduğu kimi daim onları gözləyən qaçılmaz aqibət, ən yaxşı halda, suyu süzülə-süzülə dağılışmaq olacaq. Ancaq bu xislət ki erməniçilkdədir, sabah da, o biri gün də onların başqa məmləkətlərdə də dünyanın haralarındasa partlayıb üzə çıxacağı istisna deyil.

Biz ki onların dabbaqda gönünə keçmişlərdən bələdik və artıq bütün dünya da onların üzlərinə taxdıqları məzlumluq maskasının altındakı mənhus sifətlərini getdikcə daha artıq və daha aydın şəkildə məhz olduğu kimi görməyə başlayır. Ermənilər və onlarabənzərlər istər Livanda baş qaldırsın, istər hər hansı başqa bir yerdə, bu cür iyrənc şığımaları ilə uzaqbaşı elə hasara-divara qədər həmlə edə biləcəklər. Harda olsalar, onların qarşısına Azərbaycan zirehi çıxacaq. Dəmir yumruq dadmış erməniçiliyin divardan-hasardan artıq nəyəsə hücum etmək taqəti Zəfərimizin hökmü ilə çoxdan kəsilib.

Livan erməninin çoxdan lövbər atıb daraşdığı yerdir. Ancaq bu ölkədə də cəmiyyətin ən müxtəlif təbəqələrində etibarlı dostlarımız, Azərbaycanın və haqqın yanında olan, yeri düşdükcə etiraz səsini qaldıran tərəfdarlarımız az deyil, şəksiz ki, vaxt ötdükcə artacaqlar.

2020-ci ilin noyabrında Azərbaycanın Qarabağ savaşında qazandığı möhtəşəm zəfər yalnız rəşadətli ordumuzun qarşısına çıxan, döyüş meydanında tar-mar edilən düşmənin məğlubiyyəti deyildi, böyük ölçüdə dünya erməniçiliyinin belinin qırılması idi. Məğlubluq alnına yazılmış erməniçilik və onun ardında dayanan riyakar qüvvələr Zəfərimizdən sonrakı şokdan bugünədək ayılmamışlar və o şok onlarla elə həmişəlik qalacaq. Nə qədər atılıb-düşsələr, çığırıb-bağırsalar, dünyanı varlıqlarına yaraşan qəlp, cəfəng boşboğazlıqlarla çaşdırmağa cəhd etsələr də, layiqli cavabları verilir, hər zaman da veriləcək. Arxada qalan müddətdə hansı beynəlxalq təşkilatda bizə qarşı həmlələr təşkil ediblərsə, burunları ovulub, döyüş meydanında yerlə yeksan edildikləri kimi siyasət cəbhəsində də xar olublar.

Avqustun 31-də erməniçiliyin Beyrutdakı hoppanışları iflasa uğramışların daha bir aciz cəhdidir. Acizlik və iflassa bundan belə erməniçilikdən heç vaxt ayrı düşməyəcək!

# "Abşeron" – Xəzərin nəhəng qaz-kondensat yatağı



(əvvəli 1-ci səhifədə)

Xatırladaq ki, dünən Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf Əbu-Dabi Milli Neft Şirkətinin (ADNOC) aşağı karbon həlləri və beynəlxalq inkişaf üzrə icraçı direktoru Musabbeh Al Kaabi ilə görüşüb.

Tədbirdə ölkələr arasında qarşılıqlı əməkdaşlıq əlaqələrinin uğurla inkişaf etdiyi bildirilib, ölkəmizdə enerji sektorunda həyata keçirilən layihələrdə Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) şirkətlərinin iştirakının əhəmiyyəti vurğulanıb.

Bu xüsusda cari ilin avqustunda SOCAR, Fransanın "TotalEnergies" və BƏƏ-nin ADNOC şirkətləri arasında "Abşeron" qaz-kondensat yatağında 30 faizlik iştirak payının satışına dair imzalanan sazişin Azərbaycan və BƏƏ arasında strateji əlaqələrin daha da gücləndirilməsinə dəyərli töhfə verəcəyi qeyd edilib.

Görüşdə, həmçinin "Abşeron" layihəsinin cari vəziyyəti, onun növbəti fazası üzrə irəliləyişlər, aşağı karbon həlləri və bərpa olunan enerji layihələri barədə məsələlər müzakirə olunub.

Bu xüsusda ADNOC-un Azərbaycanda ümumi gücü 10 GVt olan bərpa olunan enerji layihəsini icra edən və BƏƏ-nin təmiz enerji sahəsində ən böyük şirkəti olan "Masdar"a investisiyası ilə qlobal miqyasda bərpa-olunan enerjinin inkişafına təkan verdiyi qeyd edilib və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Xəzər dənizinin Azərbaycan sektorunda, Bakıdan, təxminən, 100 kilometr cənub-şərqdə yerləşən "Abşeron" qaz-kondensat yatağından ilk qaz cari ilin iyul ayının əvvəlində hasil edilib.

ADNOC-un BƏƏ-nin hüdudlarından kənarda ilk investisiyanı ölkəmizə yatırması respublikamızda xarici sərmayədarlar üçün yaradılan əlverişli investisiya mühitinin növbəti təzahürüdür. Sazişin Azərbaycan və BƏƏ arasında strateji əlaqələri daha da gücləndirəcəyi və ölkəmizin etibarlı təbii qaz təchizatçısı kimi mövqeyinə dəyərli töhfə verəcəyi gözlənilir.

"Abşeron" qaz-kondensat yatağının işlənməsi iki mərhələdə həyata keçirilir. İlkin Hasilat Sxemi (İHS) layihəsi çərçivəsində hazırda gündəlik 4,3 milyon kubmetr qaz və 1400 ton kondensat hasil olunur.

"Abşeron" yatağının ehtiyatı da daxil olmaqla Azərbaycanın təsdiqlənən qaz ehtiyatı 2,2 trilyon kubmetrdir. Ölkəmizin illik qaz ixracı isə 21 milyard kubmetr təşkil edir. Yaxın 5 il ərzində Azərbaycan bu həcmdə qaz ixracını 30–31 milyard kubmetrə qədər artırmağı planlaşdırır. Avropaya qaz ixracının isə 11 milyarddan 20 milyard kubmetrədək yüksəldilməsi proqnozlaşdırılır.

"Abşeron" qaz-kondensat yatağından çıxarılan "mavi yanacaq" mühüm önəm daşıyır. Çünki indiyə kimi Azərbaycanın ixracı ilə bağlı əsas qaz resursu "Şahdəniz" qaz-kondensat yatağı idi. Bu gün isə artıq ölkəmizə məxsus iki böyük qaz-kondensat yatağı var.

Ölkəmizin qaz ehtiyatlarının həcminə görə, ikinci böyük yatağı olan "Abşeron"dan hasilatın başlanması ilə ixracın artırılmasına müsbət təsir göstərəcəyi proqnozlaşdırılıb. İyulun 10-da Fransanın "TotalEnergies" şirkəti SOCAR ilə əməkdaşlıq çərçivəsində Xəzər dənizində yerləşən "Abşeron" qaz-kondensat yatağının işlənməsinin birinci mərhələsi çərçivəsində təbii qaz hasilatına başlandığını elan edib.

"Abşeron" qaz-kondensat yatağının işlənməsinin İHS mərhələsi sualtı hasilat quyusunu SOCAR-ın "Neft Daşları"ndakı mövcud qurğuları ilə əlaqəli yeni qaz emalı platformasına birləşdirir. İHS mərhələsinin hasilat gücü gündəlik 4 milyon kubmetr qaz və 12 min barel kondensat təşkil edir. Qazın Azərbaycanın daxili bazarına satılacağı nəzərdə tutulur.

JOCAP (Absheron Petroleum Birgə Əməliyyat Şirkəti) tərəfindən idarə olunan layihədə SOCAR və "TotalEnergies" hər biri 50 faiz paya malikdir. Xəzər dənizinin ilk məsafədən idarə olunan platforması olan Abşeron İHS layihəsinin qəbul platformasının idarəetməsi "Neft Daşları"nda yerləşən mərkəzi idarəetmə məntəqəsindən həyata keçirilir.

Sonda bildirək ki, "Abşeron" çox mürəkkəb quruluşa malik qaz-kondensat yatağı olaraq indiyədək Xəzər dənizində açılan və istismar edilən ən dərin hissədə yerləşir. Əgər "Şahdəniz" yatağı dənizin 550 metr dərinliyində yerləşirsə, "Abşeron" 600 metr dərinlikdədir. O cümlədən, məhsuldar qaz layları əgər "Şahdəniz"də 6 min 800-7 min 100 metr dərinlikdədirsə, "Abşeron" yatağında bu 7 min 300 metr dərinliyə qədər uzanır. Ona görə, mürəkkəblik baxımından Xəzər dənizində indiyənədək hasilat gözlənilən ən mürəkkəb yataqdır.

V.BİNYATOĞLU,
XQ

# Qardaş ölkələrin müdafiə nazirləri görüşdülər



**Türkiyədə işgüzar səfərdə olan Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov bu ölkənin Milli müdafiə naziri Yaşar Gülərlə görüşüb.**

Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədovun da iştirak etdiyi görüşdə hər iki qardaş və dost ölkənin dövlət başçılarının səmimi münasibətlərinin digər sahələrdə olduğu kimi hərbi əməkdaşlıq sahəsinə də müsbət təsir etdiyi xüsusi vurğulanıb.

Azərbaycan və Türkiyə respublikaları arasında qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan əməkdaşlığın bundan sonra da uğurla inkişaf etdiriləcəyinə əminlik ifadə olunub. Ölkələrimiz arasında strateji müttəfiqliyin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğu qeyd edilib.

Görüşdə hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib, həmçinin bu istiqamətdə görülən işlərin daha da genişləndirilməsinin vacibliyi bildirilib.

***

Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov qardaş ölkəyə işgüzar səfəri çərçivəsində rəhbərlik etdiyi nümayəndə heyəti ilə birgə Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün məqbərəsi – Anıtqəbri ziyarət edib.

Qeyd edək ki, müdafiə nazirinin Türkiyədə işgüzar səfəri davam edir.

XQ

# Separatçılar soydaşlarının taleyi ilə oynayırlar

*Ölkəmizdəki xarici təmsilçilər Ağdam–Xankəndi yolunda buna əmin oldular*



(əvvəli 1-ci səhifədə)

Dünən Azərbaycanda akkreditə olunan diplomatik korpusun nümayəndələri və hərbi attaşeləri Ağdama səfər ediblər. Onlar Ağdam–Xankəndi yolunda Azərbaycan QAC-ın ərzaq yüklərinin yerləşdiyi məntəqə ilə tanış olublar. 50-dən çox ölkə və beynəlxalq təşkilatdan 60-a yaxın şəxs, habelə xarici jurnalistlər əraziyə baxış keçiriblər.

Onlara Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev tərəfindən ətraflı məlumat verilib.

Diplomatik korpusun nümayəndələri və hərbi attaşelər Ağdam–Xankəndi yolunda AzQAC-ın ərzaq yüklərinə baxış keçiriblər. Onlara məlumat verilib ki, hər birində 20 ton olmaqla iki yük maşınına yüklənmiş əla növ ərzaqlıq buğda unu 28 avqust 2023-cü ildə istehsal edilib. Bu da Bakıdan Xankəndiyə göndərilən 40 ton unun köhnə və keyfiyyətsiz olması barədə erməni tərəfinin iddialarının əsassız olduğunu sübut edir. Daha sonra H.Hacıyev səfərlə bağlı sosial şəbəkədə paylaşım edib: "Xankəndidəki qeyri-qanuni rejim tərksilah edilməli və aradan qaldırılmalıdır".

* * *

Erməni separatçı terrorçular Azərbaycanın göndərdiyi ərzağın qəbulundan imtina etməklə, uzun müddətdən bəri bütün dünyaya yalan satdıqlarını etiraf etmiş olurlar. Əgər, Qarabağdakı erməni azlığı, doğrudan da acdırsa, deməli, ora göndərilən ərzağın hansı yolla və kimin tərəfindən göndərildiyinə əhəmiyyət verməməlidir. Bu, rəsmi Bakının erməni maskasını yırtması anlamına gəlir.

Fəqət yırtılan, sadəcə, ermənilərin maskası olmayacaq. Avropada, eləcə də okeanın o tayındakı ermənipərəst siyasi dairələrin, o cümlədən, Fransa və Rusiyanın da ikiüzlü taktikaları üzə çıxıb. Rəsmi Paris Azərbaycanın Qarabağ bölgəsində ermənilərin "humanitar böhran" içərisində çapaladığını iddia edir, prezident Makron isə az qala Xankəndidəki separatçı-terrorçuların vəkili statusunu icra edir. Fransa paytaxtının meri də bölgəyə "humanitar yardım" aksiyasına başçılıq edir.

Azərbaycan Xankəndiyə 40 ton un göndərməklə indiki mərhələdə erməni-fransız siyasi şousunu ifşa etməyi bacardı. Bütün dünya gördü ki, "blokada", "humanitar böhran" vay-şivənləri feyk-xəbərlərdən başqa bir şey deyil. Əgər Qarabağ ermənilər ac olsaydı, Bakının göndərdiyi ərzaq karvanının qarşısını kəsmək üçün Əskəranda barrikadalar qurmazdılar. Onların səhnələşdirdiyi bu şounun əsas hədəfi Laçın yolundan əvvəlki kimi, nəzarətsiz şəkildə silah-sursat, mina, qaçaqmal daşımaq imkanı qazanmaqdır.

Ermənistan telegram-kanallarının yaydığı xəbərlərdə separatçıların Ağdam–Əskəran yolunun Əskəran ərazisindən keçən hissəsini blokladığı və Rusiya sülhməramlılarına məxsus yük maşınlarını da Ağdam istiqamətində hərəkətinə mane olduqları bildirilirdi.

Sülhməramlılarla əldə olunmuş razılaşmaya görə, onlar Azərbaycan Qızıl Aypara Cəmiyyətinin gətirdiyi 40 ton unu öz maşınlarında Xankəndiyə və Qarabağın ermənilər yaşayan digər rayonlarına çatdırmalı idilər. Amma buna imkan verilməyib. Göründüyü kimi "aclıqdan məhv olan" ermənilər "Azərbaycan ununu" qəbul etmək istəmirlər.

* * *

Son üç ilin tarixi sübuta yetirdi ki, nə erməni-fransız ortaqlığı, nə də rus imperialist ssenariləri Azərbaycanı tutduğu haqq yolundan döndərə bilməyəcək. Bunu isə bütün dünyaya təkrar bəyan edirik: Qarabağ suveren Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Və çox tezliklə Xankəndidə Azərbaycanın üçrəngli bayrağı dalğalanacaq. Azərbaycan vətəndaşlığını qəbul edib qanunlarımıza tabe olan ermənilər Qarabağda yaşamaq haqqı qazanacaqlar. Fərqli seçimə baş vuralar isə özlərinə başqa yaşayış yeri axtarmalı olacaqlar.

Yeri gəlmişkən, Parisin özü üçün normal və məqbul saydığı nəsnələr Bakının işinə heç yaramır. Çünki bizim ölkəmizdə işğalçı və terrorçu dövlətlə utancverici müqavilələr bağlamaq ənənəsi yoxdur.

**İ.HƏSƏNQALA,**
**XQ**

## Baş prokuror livanlı həmkarı ilə danışıb

**Avqustun 29-da ölkəmizin Livandakı Səfirliyi qarşısında aksiya keçirən 50-yə yaxın erməni əsilli şəxs səfirliyin inzibati binasının ətrafındakı hasara zərbələr endirib, özləri ilə gətirdikləri içərisində boya olan və partlayıcı bərkidilmiş şüşələri, eləcə də bərk cisimləri binaya atıblar.**




Qeyd olunan məsələ ilə bağlı Baş prokuror Kamran Əliyev Livanın Baş Prokuroru Qassan Ueydat ilə telefon əlaqəsi saxlayıb.

Danışıq zamanı beynəlxalq norma və prinsiplərə, eyni zamanda daxili qanunvericiliyə uyğun olaraq hərtərəfli, tam və obyektiv istintaq aparılmaqla təqsirkar şəxslərin müəyyən edilərək cinayət məsuliyyətinə cəlb edilmələri istiqamətində zəruri və təxirəsalınmaz tədbirlərin görülməsi xahiş olunub.

Həmçinin, istintaqla bağlı Azərbaycan tərəfinin dəstəyi və əməkdaşlığı təklif edilib.

Tərəflər məsələ ilə əlaqədar koordinasiyalı fəaliyyətin aparılacağı barədə razılığa gəliblər.

**XQ**



# Oskanyanın "anti-Paşinyan manifesti", yaxud şizofren Vardanın üsyan çağırışı

## Ermənistanın keçmiş XİN rəhbəri Azərbaycanla mübarizənin yolları barədə "ağıl" verir

**Ermənistanın baş naziri Nikol Paşinyan daxili və xarici təzyiqlər, eləcə də Qarabağın təzyiqləri ilə Praqada səsləndirdiyi mövqeyindən əl çəkməyə məcbur edilmədidir. Əks halda, vəziyyət müharibəyə gətirib çıxaracaq. Bu fikrin müəllifi Ermənistanın keçmiş xarici işlər naziri, hazırda işi-peşəsi avantürist bəyanatlar səsləndirmək olan Vardan Oskanyandır. Bəli, Oskanyan özünün "Facebook" səhifəsində canlı yayım açaraq "ağıllı" məsləhətlər verməyindən qalmır və yenə "ampluasına" sadiqdir.**

***

Bəribaşdan deyək ki, Ermənistanın keçmiş XİN rəhbərinin bildirdikləri ölkədə onsuz da gərgin olan durumu bir qədər də gərginləşdirməyə hesablanıb. Məsələn, o deyib ki, Azərbaycan Paşinyandan onun vermək istədiyindən, hətta vermək üçün təsəvvür edə biləcəyindən də çox şey istəyir. Yəni, indiki halda Bakının şərtləri ilə qəbullanmaq, İrəvanın bəlalarını bitirməyəcək.

Göründüyü kimi, Oskanyan tipik erməni avantürizminə xas düşüncədən çıxış edir. 1918-ci ildə İrəvanı Vardanın babalarına verdik, qane olmadılar, sonra Zəngəzuru peşkəş elədik, yenə doymadılar və Qarabağı da ələ keçirməyə cəhd göstərdilər. Məşhur deyimdəki kimi, iştah yedikcə yaranır. Erməni başıpozuqlar, necə deyərlər yedilər, daha da iştahlandılar. Ona görə sabiq XİN rəhbəri belə danışır. Axı, xislətindəki budur...

***

...Oskanyan "çıxış yolu" müəyyənləşdirir. Xalq ayağa qalxmalı, küçələrə çıxmalı, kəskin vəzifələr qoymalı və hakimiyyətin mövqeyini dəyişməyi hədəf götürməlidir. Belə bir deyim də var: "Vətənpərvərlik alçaqların son sığınacağıdır". Arqumentsiz Oskanyanın xalqı üsyana çağırış motivli "vətənpərvərliyi" də alçaqlıqdan başqa bir şey deyil.

Yeri gəlmişkən, sabiq XİN başçısı əsl niyyətini də ortaya qoyur. Təxminən belə: əgər indiki hakimiyyət heç nəyi dəyişə bilmirsə, o zaman getsin, bunu bacaran insanlar gəlsin. Onun fikrincə, diplomatik imkanlar tükənməyib, hələ də dinc alternativ var. Deməli, həmin imkanları baş nazir Nikol Paşinyan yox, başqaları dəyərləndirməlidir. Əlbəttə, Oskanyan haqqında ağzını köpürdərək danışdığı imkanların nədən ibarət olduğunu açıqlamır. Çünki məqsədi təkcə danışmaqdır. Açıqladığı isə xunta rejimindən qalma avantürizm qırıntılarıdır.

***

Qocalmış, mumiyaya oxşayan Oskanyanın düşüncəsi də sir-sifəti qədər əcayibdir. Belə görünür, adamın məqsədi yalnız xalqı Paşinyan əleyhinə qaldırmaqdır, başqa heç nə. Diqqət yetirək, o, deyir ki, baş nazir Azərbaycana vədlər verib, onu yerinə yetirməsə, müharibə olacaq və bu müharibədə beynəlxalq ictimaiyyət Bakının tərəfini tutacaq. Yəni, hamı qəbul edəcək ki, savaş Paşinyanın sözünə xilaf çıxması səbəbindən baş verdi. Nəticə – Ermənistanın hazırkı iqtidarı getməlidir.

Əlbəttə, Oskanyan yeni söz demir. O, erməni şovinist-revanşist dairələrinin baxışlarını özünəxas üslubda təkrarlayır, həmin baxışlara boz çalarlar əlavə edərək, öz aləmində, mövzuya cazibədarlıq gətirir. Ancaq həm keçmiş baş diplomat, həm də digərləri niyyəsə elə sanırlar ki, Paşinyanı hakimiyyətdən uzaqlaşdırmaqla, Azərbaycanı istəklərindən yayındırmaq mümkün olacaq. Məgər Bakıda bilmirlər ki, Ermənistanda hakimiyyət dəyişikliyi yaşansa, bu, Qarabağ amilinə bağlı proses olacaq? Yaxşı bilirlər və heç şübhəsiz, əks addımlar hazırlayıblar.

Digər tərəfdən, 2018-ci ildə Ermənistanda inqilab baş verdi. Nikol hakimiyyətə gələndə nə etdi? Cavab sadədir – həmin vaxtadək aparılan Azərbaycan-Ermənistan danışıqlarının formatına zidd davrandı. Nəticədə müharibə baş verdi və İrəvan üçün rüsvayçılıq yaşandı. İndi Paşinyan gedib digəri gəlsə və Oskanyanın ağlı ilə davranıb danışıqların hazırkı motivini kənara qoymağa cəhd göstərsə, nələrsə qondarsa, yenə müharibə olacaq. Deməli, qoca Oskanyan bu baxımdan da yanılmaqdadır. Müharibə isə Ermənistan dövlətçiliyinin məhvidir.





***

V.Oskanyan kələfin ucunu tamamilə itirib. O, argentinalı dələduz, Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş baş prokuroru Luis Morena Okamponun "Ekspert rəyi: 2023-cü ildə ermənilərə qarşı soyqırımı" adlı hesabatına istinad yolu tutub. Sən demə, Oskanyan Okamponun qaldırdığı Qarabağda erməni soyqırımı şousunu Azərbaycan–Ermənistan danışıqlarının predmeti kimi görmək istəyir. Belə düşünməsi üçün "əsas" da var imiş – Vardan iki saat Okampo ilə telefonda danışıb və hiss edib ki, argentinalı oyunbaz mövqeyində qətidir, ay nə bilim məqalələr yazacaq, çıxışlar edəcək və sair.

Əlbəttə, Oskanyanın Ermənistan rəhbərliyinin avqustun 16-da BMT-də "Qarabağda humanitar böhran" adlı şousunun iflasa uğradığından xəbəri var. Ondan da xəbərdardır ki, həmin şounun tərkibində soyqırımı müddəası da yer alırdı. Bu isə o deməkdir ki, Oskanyanın düşündüklərini rəsmi İrəvan artıq həyata keçirməyə cəhd göstərib, ancaq nəticəsiz qalıb. Okampo ilə danışığa gəlincə, Paşinyan administrasiyası ilə bu beynəlxalq miqyaslı dələduzun təmasını baş nazirin bacılığı porno ulduz Kim Kardaşyan qurub. Hər halda Kardaşyan Okampoya qoca Oskanyandan daha uyğun variantdır. Özü də təkcə telefonla danışmaq üçün yox. Daha doğrusu, Kardaşyanın pornofilmləri Vardanyanın diplomat obrazından daha maraqlıdır…

***

Bir məqam da var. Sən demə, Oskanyan ABŞ-da imiş və orada görüşlər keçirib, təşəbbüs göstərib, nələrsə edib və yekunda yenə N.Paşinyanın hakimiyyətdən getməli olduğu qənaətinə gəlib. Bu yerdə yaxşı deyirlər ki, ayının min oyunu bir armudun başındadır. Ancaq Oskanyanın baxışlarında aşkar təzad var. Diqqət yetirək, artıq bildirdik ki, keçmiş XİN rəhbəri Ermənistan iqtidarının danışıqların hazırkı axarını dəyişməsinin müharibə vəziyyəti doğuracağı və savaşda beynəlxalq ictimaiyyətin İrəvanı, əvvəlki razılaşmaya xilaf çıxması səbəbindən, dəstəkləməyəcəyi düşüncəsindədir. Digər tərəfdən isə o, Nikolu fikrindən daşındırmaqdan dəm vurur: "Biz Ermənistan hakimiyyətini öz yanaşmalarını dəyişməyə məcbur etməliyik. Paşinyanın Praqada Azərbaycanın, Qarabağ da daxil olmaqla, ərazi bütövlüyünü tanıması əsas maneədir. Azərbaycan özü də keçmişdəki razılaşmalardan imtina edib. Ermənistan da bu gün bunu edə bilər. Əgər danışıqlar prosesini normal məcraya salmaq istəyiriksə, bunu etməliyik".

Əvvəla, Azərbaycan danışıqların əvvəlki axarına ona görə sadiq idi ki, məsələnin dinc yolla həllinə ümid bəsləyirdi. Bu, Ermənistanın avantürizmi səbəbindən baş vermədi. Bir halda ki, müharibə oldu, qan töküldü və ölkəmiz zəfər çalaraq yeni reallıq formalaşdı, o zaman həmin reallığa uyğun şərtlər olmalıdır. Şərtləri diktə etmək isə qalib ölkə kimi Azərbaycanın haqqıdır. Oskanyan, deyəsən, lap ağlını itirib. Görəsən, belə bir dar düşüncəli adam necə on il ərzində Ermənistanın XİN rəhbəri olub?

***

Nəhayət, V.Oskanyan özünün paradoksal səciyyəli anti-Paşinyan "manifestinə" daha bir "tezis" əlavə edib. Əlbəttə, fikrini özünəxas həyasızlıq elementləri ilə "zənginləşdirməyi" də unutmayıb. O deyib ki, dünyada 40-a yaxın öz müqəddəratını təyinetmə hərəkatı var və onu başladanların heç biri hüquqlarından imtina etməyiblər: "Ermənilər birinci ola bilərlər. Dünyanın 40-dan çox ölkəsində müxtəlif səviyyəli muxtar statusa malik 120 ərazi var. Qarabağa bu gün çörək qırıntıları təklif olunur. Yəni, hüquq və təhlükəsizliyin təminatı. Sonra Azərbaycan qanunları və Konstitusiyası gələcək. Bunu dünyada baş verənlərlə müqayisə edin. Biz ən sadəlövh insanlarıq? Biz öz mövqeyimizdən, Qarabağın müqəddəratını təyin etmək hüququndan əl çəkməliyik?"

***

Sonda bir məsələyə şərhsiz toxunaraq yazımızı tamamlayaq. Məlum olduğu kimi, Rusiyanın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bir neçə gün əvvəlki brifingində çox aydın şəkildə bildirdi ki, Ermənistanın baş naziri Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü tanımaqla, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın ruhundan irəli gələn məsələləri kənara qoyub, yeni reallıqlar formalaşdırıb. Göründüyü kimi, Oskanyan da eyni şeyi deyir. Bu məqam barədə düşünməyi oxucuların ixtiyarına buraxırıq. Son vaxtlar Vardanyanın ortaya atılmasının bir qayda olaraq Moskvadan gələn bəyanatlarla eyni vaxta təsadüf etməsi reallığı ətrafında fikirləşməyi də həmçinin.

**Ə.RÜSTƏMOV,**
**XQ**

# Öz buğdamızın çörəyini yeyək

## *Yaxın illərdə bu göstərici 80 faizə çatacaq*

**Müstəqillik dövründə Ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyi ilə ərzaq təminatı milli təhlükəsizliyin tərkib hissəsi kimi daim diqqətdə saxlanılıb. Ötən illərdə ölkə əhalisinin zəruri həcmdə və keyfiyyətdə ərzaq məhsulları ilə təminatına xüsusi önəm verilib.**

Bu məsələ ilə bağlı çox sayda sənədlər imzalanıb və ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi, respublikamızın regionda aparıcı kənd təsərrüfatı məhsulları istehsalçısına çevrilməsi qarşıya mühüm vəzifə kimi qoyulub. Ölkəmizdə bu məsələnin aktuallığı son illərdə daha da artıb. Şübhəsiz ki, bu, əsasən, dünyada nəzərə çarpan iqtisadi–siyasi təlatümlərlə, idxal-ixrac əməliyyatlarında yaranan problemlərlə bağlı olub. Azərbaycanda bu fakt nəzərə alınaraq ərzaq təhlükəsizliyi ilə əlaqədar üzləşilən çətinliklərin aradan qaldırılması məqsədilə daxili potensialın hərəkətə gətirilməsinə xüsusi önəm verilib. Bunun üçün, ilk növbədə, ərzaq təhlükəsizliyinin gücləndirilməsi üçün yerli istehsal resurslarının və infrastruktur təminatının inkişafı məsələsi önə çəkilib.

Vurğulanan sonuncu məqamla bağlı onu bildirim ki, ölkəmizin, necə deyərlər,



torpaq, su və iqlim resursları baxımından bəxti gətirib. Bu amillər əsasında son illərdə müəyyən kənd təsərrüfatı məhsullarının yerli istehsalı hesabına özünütəminetməsi gerçəkləşib. Başqa sözlə, torpağın münbitləşdirilməsi, su ehtiyatlarının yaradılması və əlverişli iqlim şəraitinin mövcudluğu–bütün bu yerli istehsal potensialının hərəkətə gətirilməsi ilə bərabər, ərzaq məhsulları ehtiyatlarının saxlanması üçün anbar infrastrukturunun və emal sənayesinin yaradılması istiqamətində də genişmiqyaslı layihələr reallaşdırılıb.

Bununla bərabər, son illər əsas ərzaq məhsullarının, o cümlədən ərzaqlıq buğdanın tədarükü və emalı ilə məşğul olan sahibkarlara güzəştli şərtlərlə kreditlər, faiz subsidiyaları və vergi-gömrük güzəştləri verilib. Məsələn, təkcə ötən il ərzində kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən maliyyə dəstəyi olaraq ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 540 milyon manat vəsait sərf olunub.

Burada ərzaqlıq buğdanın tədarükü və emalı ilə bağlı bir qədər ətraflı bəhs etmək istərdik. Belə ki, Kənd Təsərrüfatı Nazirliyi ilə bağlanan müqaviləyə əsasən, müasir suvarma sistemlərinin tətbiq edildiyi təsərrüfatlarda istehsal olunan və Dövlət Ehtiyatları Agentliyinə, həmçinin un dəyirmanlarına təhvil verilən ərzaqlıq buğdanın hər tonuna görə istehsalçılara 100 manat məhsul subsidiyası ödənilməsi qərara alınıb.

Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi, yerli ərzaqlıq buğda istehsalçılarının fəaliyyətinin stimullaşdırılması və onlara dövlət dəstəyinin göstərilməsi ilə əlaqədar Dövlət Ehtiyatları Agentliyi Kənd Təsərrüfatı, İqtisadiyyat və Maliyyə nazirlikləri ilə razılaşdırılan təklifi nəzərə alaraq "Ərzaqlıq buğdanın dövlət tədarük qiymətinin müəyyənləşdirilməsi barədə" Sərəncam qəbul edib. Həmin sənəddə yerli ərzaqlıq buğdanın bir tonunun dövlət tədarük qiyməti 2023-cü il üçün 450 manat müəyyənləşdirilib.

Yeri gəlmişkən, Prezident İlham Əliyevin 2022-ci il 19 iyul tarixli "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Fərmanı da istehsalçılar tərəfindən ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi istiqamətində atılan mühüm addım kimi dəyərləndirilib.

Dövlətimizin başçısı tərəfindən bu istiqamətdə yeni hədəflər də müəyyənləşdirilib və qarşıdakı 3-4 il ərzində ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin 80 faizə çatdırılması istiqamətində iş aparılacağı nəzərdə tutulub. Xatırladaq ki, adıçəkilən sənədin qəbulu ilə cari il ərzində ərzaqlıq buğda təminatının daha da yüksəldilməsi üçün 180 milyon manat vəsait xərclənəcəyi qərara alınıb.

Bütün bunların məntiqi nəticəsi Statistika Komitəsinin göstəricilərində də diqqət çəkir. Belə ki, cari il avqustun 1-nə kimi qarğıdalı da daxil olmaqla tarlalardan 2 milyon 902 min ton və yaxud ötən ilin eyni dövrünə nisbətən 1,7 faiz çox dənli və dənli paxlalı bitkilər yığılıb. Məhsuldarlıq 32 sentnerə bərabər olub. Məhsulun 1 milyon 828,6 min tonunu və yaxud 62,7 faizini buğda (ötən il Azərbaycanda buğda istehsalı 1 milyon 736 min ton təşkil edib), 1 milyon 64 min tonunu (36,5 faizini) arpa, 22,6 min tonunu (0,8 faizini) isə digər dənli və dənli paxlalı bitkiçilik məhsulları təşkil edib.

Kənd Təsərrüfatı Nazirliyindən aldığımız məlumata əsasən, hazırda ərzaqlıq buğdanın dövlət tədarükü prosesi həyata keçirilir. Məlumata görə, avqustun 25-dək tədarük məntəqələrinə 45,2 min ton tələblərə cavab verən ərzaqlıq buğda təhvil verilib. Hazırda ərzaqlıq buğdanın dövlət tədarükü prosesi davam edir.

Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsindən danışarkən bir məsələyə də diqqət yetirmək istərdik. Mütəxəssislərin fikrincə bu məhsul istehsalının artırılmasında qısa rotasiyalı əkin dövriyyələri, torpaq becərmələri, gübrə verilməsinin səmərəli üsulları, həmçinin optimal səpin müddəti və normalarının, yeni intensiv sortların təsərrüfatlara tətbiqi, keyfiyyətli toxum materialından istifadə edilməsi və əkinlərin xəstəlik, ziyanverici, eyni zamanda, alaqlardan mühafizə olunması kimi amillər mühüm rol oynayır.

Eyni zamanda, bildirilir ki, becərmə kompleksinə daxil olan əhəmiyyətli tədbirlərdən biri də taxıl səpininin vaxtında və keyfiyyətlə aparılmasıdır. Keyfiyyətli səpin aparmaqla sağlam və kütləvi cücərtilərin alınması məhsulun yarısı deməkdir. Yüksək texnologiya əsasında fəaliyyət göstərən, müasir aqro tələblərə əməl edən təsərrüfatların əkin sahələrində yüksək göstəricilərə nail olunması məhz bunun bariz ifadəsidir.

### Ekspert rəyi

**Eyyub KƏRİMLİ, iqtisadçı-ekspert**



Prezident İlham Əliyevin 5 iyun 2023-cü il tarixli sərəncamı ilə təsdiqlənmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda kənd təsərrüfatının inkişafı ən əhəmiyyətli hədəflərdən biri kimi dəyərləndirilib. 11 prioritet istiqamətə əsaslanan proqramda aqrar sahəyə aid 270-dən çox alt layihə müəyyənləşdirilib.

Naxçıvanda yaradılan şəffaf mühitin muxtar respublikanın mərkəzi büdcəsinin gəlirlərinin artmasına və xərclərinin azalmasına səbəb olub. Belə bir xüsusi iqtisadi rejimə keçid növbəti ildən gəlirləri daha da artıracaq. Bu müsbət tendensiya digər məsələlərlə yanaşı, dövlət proqramında nəzərdə tutulmuş aqrar layihələrin icrasına da daha geniş imkanlar yaradacaq.

Dövlətimiz kənd təsərrüfatının, o cümlədən də strateji sahə olan taxılçılığın inkişafı məqsədilə mühüm islahatlar həyata keçirir. Əkinçilər subsidiyalar, texnika və gübrələrlə təmin olunur. Bununla belə təsərrüfat sahibləri bu layihələrdən səmərəli yararlanmalı, innovativ yeniliklərə maraq göstərməlidirlər.

2022-ci ilin payızında 20 min 762 hektar, cari ilin yazında isə 21 min 247 hektar sahədə taxıl əkini həyata keçirilib. Ümumilikdə, 19 min 797 hektara yaxın əkin sahəsində taxıl biçini həyata keçirilib, 49 min 267 tondan artıq məhsul toplanılıb. Həmin məhsulun 12 min 233 hektarını buğda, 9014 hektarını arpa təşkil edib. Orta məhsuldarlıq hər hektarda 24,9 sentner olub. Bu da istehsal olunan unun qiymətinin 27 faizdən çox ucuzlaşmasına səbəb olub. Belə ki, 50 kiloqramlıq unun qiyməti 37 manatdan 27 manata düşüb. Qiymətlərin aşağı düşməsi yerli unun satışına da müsbət təsir göstərib.

Yerli müəssisələrdən verilən məlumata görə, son 20 gün ərzində 270 tona yaxın un məhsulu satılıb. Daxili bazarda çörək istehsalçılarına 50 kiloqram unun 33-34 manata təklif olunduğu nəzərə alınaraq iyulun 17-dən 300 qramlıq çörəyin topdansatış qiyməti 36 qəpiyə, pərakəndə satış qiyməti isə 40 qəpiyə endirilib.

Sözsüz ki, bu hal iqtisadi baxımdan çox uğurlu və sevindirici bir nəticədir. Çünki, ümumiyyətlə, tələbatın daxili istehsal hesabına ödənilməsi bu sahədə iqtisadi inkişafı təsdiq edən faktordur. Digər tərəfdən, bu, ölkəmizdə ilk belə uğurlu iqtisadi nümunədir. Sözsüz ki, unun qiymətinin aşağı düşməsi tək çörəyin ucuzlaşmasından əlavə, un məmulatlarının da ucuzlaşmasına öz müsbət təsirini göstərəcək. Bu da son zamanlar baş verən inflyasiyanın və qiymət artımının qarşısını alacaq bir amildir. Ümumilikdə, unun ucuzlaşması qida sektoruna müsbət təsir göstərəcək ki, bu da Naxçıvan əhalisinin ailə büdcəsinə və maddi rifahının artmasına əhəmiyyətli təsirləri olacaq.

Hazırda aqroparkların belə bir istiqamətdə fəaliyyəti müsbət nəticələrlə müşahidə olunur. İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyindən verilən məlumata görə, cari il aqroparkların pivotaltı sahələrində buğda əkini 52 faiz və yaxud 11,3 min hektar artırılmaqla 33 min hektara çatdırılıb. Növbəti 5 il ərzində pivotaltı sahələrin 100 min hektara çatdırılması proqnozlaşdırılıb.

Yazını ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi ilə bağlı bir informasiya ilə yekunlaşdırmaq istərdik. Belə ki, bir neçə gün bundan əvvəl mətbuatda Naxçıvan Muxtar Respublikasında taxıl istehsalının həcminin artırılması hesabına unun qiymətinin kəskin aşağı düşməsi ilə bağlı xəbər yayıldı. Muxtar respublikanın aparıcı taxıl emalı müəssisəsinin icraçı direktoru Canməmməd Canməmmədovun bildirdiyinə görə, hazırda Naxçıvanda 50 kiloqramlıq un kisəsi 27 manata satılır ki, bu da əvvəlki qiymətlə müqayisədə 10 manat və yaxud 27 faiz azdır. İcraçı direktor sözlərinə əlavə edib ki, cari il müəssisə yerli istehsalçılardan 5 min 266 ton buğda qəbul edib, halbuki son 3 ildə bu rəqəm 2 min 700 tona yaxın olub. Son 20 gün ərzində isə 270 tona yaxın un satılıb. Bu səbəbdən də, muxtar respublikada unun ucuzlaşmasının çörəyin qiymətinə də təsir edəcəyi gözlənilir.

***Vaqif BAYRAMOV, XQ***



# Azərbaycanda inflyasiya optimal həddə enəcək

**Beynəlxalq Valyuta Fondu Qafqaz və Mərkəzi Asiyada inflyasiyanın qarşısının alınması yollarını açıqlayıb. Bildirilir ki, Qafqaz və Mərkəzi Asiya ölkələrində uçot dərəcəsinin 1 faiz bəndi artırılması birinci ildə inflyasiyanın 0,5 faiz bəndi azalması ilə nəticələnir.**

Fondun araşdırmasına görə, region ölkələrinin inflyasiya təzyiqlərinin qarşısını almaq və inflyasiya gözləntilərini dəstəkləmək bacarığı onların pul-kredit siyasətinin etibarlılığından və effektivliyindən asılıdır.

Fond faiz dərəcələrinin dəyişməsinin iqtisadiyyata təsirini məhdudlaşdırmaqla pul-kredit siyasətinin effektivliyini azaldan struktur amilləri sadalayıb. Onların arasında region ölkələrində pul-kredit siyasətinin faiz dərəcələrinə, bank kreditləşməsinə, aktivlərin dəyərlərinə, balans hesabatlarına və inflyasiya gözləntilərinə təsirini zəiflədən dayaz maliyyə bazarları var.

Digər amil isə faiz dərəcəsinin dəyişməsinin bəzi təsirlərini kompensasiya edə bilən məzənnənin idarə edilməsindən və valyuta intervensiyalarından daimi asılılıqdır. Təsir göstərən daha bir amil son on ildə tədricən azalmasına baxmayaraq, ABŞ dollarının iqtisadiyyatda hələ də yüksək istifadə göstəricisi və ya dollarlaşmadır.

Beynəlxalq Valyuta Fondu, həmçinin Qafqaz və Mərkəzi Asiya ölkələri üçün üç əsas prioritet müəyyən edib. Fondun iqtisadçıları, ilk növbədə, mərkəzi bankların əməliyyat müstəqilliyinin genişləndirilməsini təklif edirlər. Bura vergi-büdcə siyasətinin deflyasiyanı dəstəkləməsini, mərkəzi bankın idarə heyəti üzvlərinin əksəriyyətinin qərar vermək öhdəliyinin olmamasını təmin etmək, eləcə də mərkəzi banklar tərəfindən subsidiyalaşdırılmış kreditləşmənin və digər büdcədənkənar dövlət xərcləri üzrə mandatların ləğvi daxildir.

İkinci prioritet kimi xarici şokların təsirini azaltmaq və pul-kredit siyasətini daxili ehtiyaclara yönəltməyə kömək etmək üçün daha çox məzənnə çevikliyi təklif edilir. Bu, yalnız həddindən artıq məzənnə dəyişkənliyini aradan qaldırmaq və valyuta alışı və satışının bərabər balansını təmin etmək üçün valyuta müdaxilələrinin məhdudlaşdırılmasını tələb edir.

Fondun müəyyənləşdirdiyi üçüncü prioritet isə əlaqələrin və şəffaflığın gücləndirilməsi yolu ilə mərkəzi bankın etimadının artırılması zəruriliyi ilə bağlıdır. Mərkəzi bankların şəffaflaşdırılmasında son irəliləyişlərə baxmayaraq, aydın kommunikasiyanın çətin olaraq qaldığını düşünən fondun mütəxəssisləri hesab edirlər ki, region ölkələrinin mərkəzi bankları qərarlarının siyasi məqsədlərə çatmağa necə kömək etdiyini izah etmək üçün səylərini davam etdirməlidirlər.

Yeri gəlmişkən, Beynəlxalq Valyuta Fondu bu il Azərbaycanda illik inflyasiyanın 11,3 faiz səviyyəsində olacağını proqnozlaşdırır. Bu barədə fondun "Dünya iqtisadiyyatının inkişaf perspektivləri" hesabatının aprel sayında bildirilir. Sənədə əsasən, bu, qurumun oktyabr ayına olan proqnoz göstəricisi ilə müqayisədə 0,5 faiz bəndi çoxdur. Ümumilikdə isə, Beynəlxalq Valyuta Fondu gələn il Azərbaycanda inflyasiyanın 8 faiz, 2028-ci ildə isə 4 faiz səviyyəsində olacağını gözləyir.

2023-cü ilin yanvar-iyul aylarında Azərbaycanda inflyasiya əvvəlki ilin 7 ayına nisbətən 12,2 faiz təşkil edib. Bu isə iyun ayı ilə müqayisədə 0,5 faiz azdır. Dövlət Statistika Komitəsi məlumatına görə, hesabat dövründə ölkədə ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 14,3 faiz, qeyri-ərzaq məhsulları üzrə 11 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə isə 10,4 faiz artım qeydə alınıb. İyul ayında istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 99,3 faiz, ötən ilin eyni ayına nisbətən isə 109,4 faiz təşkil edib. Cari ilin iyul ayında ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 98,5 faiz, ötən ilin iyul ayına nisbətən 109,7 faiz təşkil edib. Məlumata görə, bəzi ərzaq qiymətlərində ucuzlaşma baş verib, digərlərinin qiymətlərində isə ciddi dəyişikliklər baş verməyib.

Komitədən bildirilib ki, iyul ayında əvvəlki ayla müqayisədə əhaliyə göstərilmiş ödənişli xidmətlərdən bahalaşma, əsasən, hava nəqliyyatı ilə beynəlxalq sərnişindaşıma, taksi nəqliyyatı ilə şəhərdaxili sərnişindaşıma xidmətlərinin və respublikadan kənara istirahət turlarının qiymətlərində müşahidə olunub. Digər ödənişli xidmətlərin qiymətlərində isə ciddi dəyişikliklər baş verməyib.

Azərbaycanda antinflyasiya tədbirlərinin davam etdirilməsi Prezident İlham Əliyevin diqqət mərkəzində saxladığı vacib məsələlərdəndir. Təsadüfi deyil ki, dövlətimizin başçısı 2023-cü ilin birinci yarısının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə bununla bağlı narahatlığını ifadə edərək deyib: "Əlbəttə ki, inflyasiyanın ikirəqəmli olması bizi düşündürməlidir. Ümid edirəm ki, ilin sonuna qədər inflyasiya birrəqəmli səviyyəyə düşə bilər. Burada təbii səbəblərlə yanaşı, subyektiv səbəblər də vardır. Onlar daha ciddi araşdırılmalıdır və ilin sonuna qədər atılacaq addımlarla bağlı təkliflər verilməlidir. Çünki Azərbaycanın bütövlükdə iqtisadi potensialı və iqtisadi sahədə əldə edilmiş nəticələr fonunda inflyasiyanın 12 faiz səviyyəsində olması, əlbəttə ki, arzuolunan deyil".

Bu səbəbdən də ölkə başçısı hökumətə ilin sonuna qədər atılacaq addımlarla bağlı təkliflər verməyi tapşırıb. Dövlət başçısının tapşırığından irəli gələn məsələlərin icrası məqsədilə Baş nazir Əli Əsədov iyulun 15-də Azərbaycanda inflyasiyanın iqtisadi artım üçün məqbul səviyyəyə endirilməsinin təmin edilməsi, inflyasiya proseslərini və onun səbəblərini kəmiyyət və keyfiyyətcə qiymətləndirməyə imkan verən təhlil və monitorinq sisteminin daha da təkmilləşdirilməsi, eləcə də bu sahədə qurumlararası koordinasiyanın gücləndirilməsi məqsədilə işçi qrupun yaradılması ilə bağlı sərəncam imzalayıb.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru, iqtisad elmləri doktoru, professor Vüsal Qasımlı bildirib ki, son zamanlar qlobal iqtisadi artımın səngiməsi fonunda yüksək inflyasiya çağırışı dünya iqtisadiyyatının bir hissəsi olan Azərbaycandan da yan keçməyib. Buna baxmayaraq, Prezident İlham Əliyevin apardığı uğurlu iqtisadi siyasət nəticəsində ölkəmizin qeyri-neft sektoru sürətlə böyüyür və maliyyə göstəriciləri yaxşılaşır. Bu mənada 2023-cü ildən başlayaraq, Azərbaycanda iqtisadi artım və inflyasiya sahəsində vəzifələr həll ediləcək.

V. Qasımzadə hökumətin antiinflyasiya siyasəti barədə danışarkən deyib ki, Azərbaycanda inflyasiya məsələsi həmişə makroiqtisadi sabitliyin tərkib hissəsi olaraq diqqət mərkəzində olub və inflyasiya ilə uğurlu mübarizə üzrə institutsional yaddaşımız var. Onun sözlərinə görə, Nazirlər Kabinetinin "İnflyasiya və qiymətlər üzrə monitorinqin gücləndirilməsi istiqamətində əlavə tədbirlər barədə" 15 iyul 2023-cü il tarixli sərəncamı da bu məsələnin həllinə kömək olacaq və hökumət inflyasiyanı optimal həddə endirəcək.

***Mirbağır YAQUBZADƏ, XQ***

## Bankomatların sayı 3 mini ötüb

***Son zamanlar ölkəmizdə banklar və "Azərpoçt" MMC-nin ödəniş xidməti şəbəkələri üzrə dinamik artım müşahidə olunur. Belə ki, ötən ilin iyul ayının sonu ilə müqayisədə ölkədəki bankomatların sayı 2,6 faiz, POS-terminalların sayı 17,1 faiz artıb.***

Mərkəzi Bankdan XQ-yə verilən məlumata görə, iyulun 31-nə fəaliyyət göstərən 24 bankın filiallarının sayı 486, şöbələrinin sayı 86, ATM-lərin sayı isə 3015 olub. Hesabat ayında bank sektorunda çalışanların sayı 0,3 faiz və ya 78 nəfər artaraq 23,319 nəfər təşkil edib. Ümumilikdə, son 1 ildə bank sektorunda çalışanların sayı 7,3 faiz və ya 1590 nəfər artıb.



## Xəzərdən 7 ayda 4 mindən çox minik avtomobili keçirilib

***Bu ilin yanvar–iyul aylarında Bakı Beynəlxalq Dəniz Ticarət Limanı vasitəsi ilə 4 mindən çox minik avtomobili daşınıb.***

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-verilən məlumata əsasən, bunun 768-i iyul ayının payına düşüb ki, bu da yanvar ayı ilə müqayisədə 2,7 dəfə çoxdur. Yükaşırmada bu müsbət tendesiyanın qarşıdakı ayalarda da davam edəcəyi pronozlaşdırılır.



## Yaponiya ilə ticarət 56 faiz çoxalıb

***Bu ilin yanvar–iyul aylarında Azərbaycanla Yaponiyanın ticarət dövriyyəsi 244 milyon 366 min dollar təşkil edib.***

Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu göstəricinin həcmi 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 56,3 faiz və ya 88 milyon dollar çoxdur. Bu dövrdə respublikamızdan Yaponiyaya ixracın həcmi 0,5 faiz azalaraq 9 milyon 792 min dollar, Yaponiyadan ölkəmizə ixracın həcmi isə 60 faiz artaraq 234 milyon 574 min dolar təşkil edib.

***XQ***



# Kəmaləddin Heydərov Şəkidə qəbul keçirib

**Fövqəladə hallar naziri Kəmaləddin Heydərov avqustun 31-də Şəki şəhərində, nazirliyin Şəki rayon Dövlət Yanğından Mühafizə Hissəsinin inzibati binasında Şəki və Qax rayonlarının sakinləri ilə görüş keçirib.**



Fövqəladə hallar naziri tərəfindən qəbul edilən Şəki və Qax rayonlarının sakinlərinin müraciətlərinin əksəriyyəti yerində həllini tapıb, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə nazirliyin aidiyyəti strukturlarının rəhbərlərinə tapşırıqlar verilib.

Fövqəladə hallar naziri ilə yanaşı, nazir müavinləri, nazirliyin müvafiq baş idarə və qurum rəhbərləri də vətəndaşlarla görüşüb.

*XQ*

# Rəsmi Bakı Parisə nota verdi

**Dünən Fransanın Azərbaycandakı səfiri Ann Buayon Xarici İşlər Nazirliyinə çağırılıb.**

Nazirliyin Mətbuat xidməti idarəsindən XQ-yə bildirilib ki, görüş zamanı Paris şəhərinin meri Ann İdalqo daxil olmaqla Fransanın bir neçə şəhərinin rəhbər şəxslərinin müşayiəti ilə "humanitar yük" adı altında "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsi istiqamətinə nəqliyyat vasitələrinin göndərilməsi və həmin şəxslər tərəfindən Azərbaycana qarşı təxribatçı bəyanatlar səsləndirilməsi ilə bağlı XİN-in etiraz notası Fransa səfirinə təqdim edilib.

Fransa tərəfinin bu addımlarının Azərbaycanın daxili işlərinə birbaşa müdaxilə olmaqla yanaşı, ölkəmizin beynəlxalq hüquqla qorunan suverenliyi və ərazi bütövlüyünə qarşı qəsd olduğu vurğulanıb.

Qeyd olunub ki, Ermənistanın yalan və manipulyasiya kampaniyasına alət olan bu təxribatçı əməllər bölgədə vəziyyətin gərginləşməsinə yönələn və Fransa tərəfindən Ermənistanı revanşist mövqeyini davam etdirməyə həvəsləndirən və son günlər daha da intensivləşən addımların növbəti nümunəsidir.

Azərbaycan tərəfi beynəlxalq humanitar yardımın göndərilməsi ilə bağlı beynəlxalq hüquqi çərçivəyə zidd olaraq nümayişkaranə şəkildə Azərbaycan tərəfi ilə razılaşdırmadan, onun iradəsinin əksinə Azərbaycanın beynəlxalq tanınmış ərazisinə hər hansı bir ad altında yüklərin göndərilməsi cəhdini təxribatçı əməl kimi qiymətləndirib və buna qəti etirazı qarşı tərəfin diqqətinə çatdırılıb.

Azərbaycanın beynəlxalq hüquqla qorunan suverenliyi və ərazi bütövlüyünə qarşı yönələn, regionda beynəlxalq aktorların fəal səyləri ilə irəlilədilən kövrək normallaşma prosesini təhlükə altına alan addımlara son qoyulması Fransa tərəfindən təkidlə tələb olunub.

*XQ*

# Ədliyyə naziri Şamaxıda vətəndaşlarla görüşüb



**Avqustun 31-də ədliyyə naziri Fikrət Məmmədov Şamaxıda İsmayıllı, Qobustan, Şamaxı və digər rayonlardan olan vətəndaşlarla görüşüb.**

Qəbulda vətəndaşların ədliyyə fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib, qaldırılan məsələlərə dair aidiyyəti tapşırıqlar verilib. Bu zaman Vətən müharibəsi iştirakçılarının və şəhid ailələrinin qayğılarına xüsusi həssaslıqla yanaşılıb.

Səfər çərçivəsində nazir, həmçinin yerli ədliyyə orqanlarına və məhkəməyə baş çəkərək iş şəraiti ilə tanış olub, ədliyyə işçiləri və hakimlərlə görüşüb, təməli Ulu öndər tərəfindən qoyulan və dövlətimizin başçısının müasir çağırışlara uyğun həyata keçirdiyi ədliyyə və məhkəmə islahatlarından danışılıb, qarşıda duran vəzifələr diqqətə çatdırılaraq, müvafiq tapşırıq və tövsiyələr verilib.

*XQ*

# Müdafiə Nazirliyinin məlumatı



**Avqustun 31-i saat 10:55 radələrində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun Şuşa rayonu istiqamətindəki mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər.**

Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib. Ordumuzun bölmələri görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işləri dərhal dayandırıblar.

***

Dünən saat 19:30 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Zod yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun üzbəüz mövqelərini atıcı silahlardan atəşə tutub.

***

Dünən saat 20:15-də Ermənistan silahlı qüvvələrinin bölmələri Qafan rayonu istiqamətində yerləşən mövqelərindən Ordumuzun Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb

*XQ*

# Sərsəng Su Anbarı ekoloji fəlakət mənbəyidir

**Sərsəng Su Aanbarında yaranmış qəza vəziyyəti ilə əlaqədar Azərbaycanın ekolojiyönümlü qeyri-hökumət təşkilatları bəyanatla çıxış ediblər. Ölkənin 16 vətəndaş cəmiyyəti qurumu rəhbərinin imzaladığı sənəddə Ağdərə–Kəlbəcər ərazisindəki bu nəhəng hidroqurğunun ekoloji fəlakət mənbəyinə çevrilməsi həyəcanla beynəlxal aləmin nəzərinə çatdırılır.**



Sənəddə bildirilir ki, Tərtərçayın üzərində – Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki Sərsəng Su Anbarı Ermənistan və onun himayə etdiyi qüvvələr tərəfindən məqsədyönlü şəkildə ekoloji və sosial-iqtisadi terror vasitəsinə çevrilib: "Qəza vəziyyətində olan su anbarı aşağı hissədə yerləşən yaşayış məntəqələri, təsərrüfatlar və infrastruktur obyektləri üçün ciddi təhlükə yaradır. Sərsəng Su Anbarının Ermənistan və onun himayə etdiyi qanunsuz rejimin tör-töküntüləri tərəfindən qəsdən Azərbaycan əhalisinə qarşı ekoloji və sosial-iqtisadi terror vasitəsi kimi istifadə olunması yolverilməzdir".

Bvəyanatda daha sonra qeyd edilir ki, 47 il əvvəl istismara verilmiş su anbarının təmir və bərpasına ciddi ehtiyac var. 30 ildən artıqdır ki, Ermənistan bu su anbarını qanunsuz istismar edib, iqtisadi və ekoloji cinayətkarlıqla məşğul olub: "Anbarın mövcud qəza vəziyyəti onun aşağı hissəsində yerləşən yaşayış məntəqələri, təsərrüfatlar və infrastruktur obyektləri üçün ciddi təhlükə yaradır. Ötən dövrdə Ermənistanın qanunsuz fəaliyyətini davam etdirməsi Sərsəng su anbarında hər an dəhşətli humanitar fəlakətə səbəb ola bilər".

Bəyanatda erməni separatçılarının su anbarını cinayət vasitəsinə çevirməsinin Böyük kənd təsərrüfatı potensialı və münbit torpaq ehtiyatlarına malik Tərtər, Ağdam, Bərdə, Goranboy, Yevlax və Ağcabədi rayonlarının min hektar əkin sahəsini sisuz qoyması kəskin ittiham olunur. Sonda bildirilir: "Ermənistan və onun himayə etdiyi qanunsuz rejimin tör-töküntülərinin Azərbaycana qarşı ekoloji terror fəaliyyəti dərhal dayandırılmalı və Sərsəng Su Anbarının idarəçiliyi Azərbaycan Respublikasının aidiyyəti dövlət qurumlarına təhvil verilməlidir!".

*XQ*

# "Sputnik" radiosunun Qarabağda yayımı dayandırılıb

**"Sputnik" radiosunun Qarabağda yayımının davam etdirilməsi üçün Azərbaycanın icazəsi lazımdır.**

Bu barədə "Rossiya seqodnya" mediaqrupunun baş direktoru Dmitri Kiselyov Rusiya Federasiyası Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr üzrə Komitəsi sədrinin birinci müavini Konstantin Zatulinin məktubuna cavab olaraq bildirib.

Məktubda qeyd olunur ki, "Sputnik" radiosunun Qarabağda yayımının dayandırılması Ermənistanın baş naziri Nikol Paşinyanın İrəvanın Azərbaycanın ərazi bütövlüyünü tanımağa və Ermənistanın ərazisini 1991-ci ilin sərhədlərində qeyd etməyə hazır olması barədə bəyanatı ilə bağlıdır. D.Kiselyov vurğulayıb ki, söhbət radio yayımının tam deyil, müvəqqəti dayandırılmasından gedir.

"Rəsmi Bakıdan yayımı davam etdirmək üçün bütün aktual hüquqi normalara uyğun icazə alınarsa, regionda yayımı davam etməyə hazırıq", – deyə D.Kiselyov əlavə edib.

*XQ*

# Rusiya–Azərbaycan münasibətləri uğurla inkişaf edir



**Avqustun 31-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə Rusiya Federasiyasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mixail Yevdokimovla görüşüb.**

Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında siyasi, iqtisadi, mədəni-humanitar münasibətlərlə yanaşı, dini-mənəvi əlaqələrin də mövcud səviyyəsindən razılıq ifadə olunub. QMİ sədri yeni səfirin bu əlaqələrin inkişafı istiqamətində öz səylərini əsirgəməyəcəyinə ümidvar olduğunu bildirib. Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası ilə Qafqaz Müsəlmanları İdarəsinin dinlərarası dialoq sahəsində səmərəli əməkdaşlıq münasibətlərinin mövcudluğundan, ölkəmizin dini həyatında, dini konfessiyalar müstəvisində fəal icma olaraq iştirakından razılıq ifadə edilib.

İkinci Qarabağ müharibəsində Azərbaycan xalqının işğaldan azad etdiyi ərazilərdə gedən genişmiqyaslı quruculuq işləri, infrastruktur layihələri ilə yanaşı, vandalizmə məruz qalmış dini-mənəvi irsin dirçəldilməsi, məscidlərin və pravoslav, alban-udi kilsələrinin, digər məbəd və ziyarətgahların yenidən qurulması, bərpası, qorunması sahəsində misilsiz işlər görüldüyünü deyən Allahşükür Paşazadə bütün bunların Prezident İlham Əliyevin möhkəm siyasi iradəsi sayəsində həyata keçirildiyini qürurla qeyd edib.

M.Yevdokimov Rusiya ilə Azərbaycan arasında geniş spektr üzrə münasibətlərin hər iki dövlətin mənafeləri naminə uğurla davam və inkişaf etdiyini vurğulayıb. Diqqətə çatdırıb ki, Rusiya Federasiyası bölgədə sülhün davamlı olması, habelə humanitar yükün Qızıl Aypara Cəmiyyətinin xətti ilə Ağdam-Xankəndi yolundan keçirilməsi istiqamətində öz səylərini əsirgəmir.

*XQ*

# İcma xəbərləri

**Ermənistanın Azərbaycan Qızıl Aypara Cəmiyyətinin ehtiyacı olanları ərzaq ilə təmin etməsinin qarşısını alması Qarabağın erməni əhalisinin ərzaqla təminatında, əslində, problem olmadığını və ya yardıma ehtiyac olmasına baxmayaraq, bu yardımdan mənfur siyasi məqsədlər və etnik nifrət səbəbi ilə imtina edildiyini göstərir.**

Bu barədə Qərbi Azərbaycan İcmasının həmin məsələ ilə bağlı bəyanatında bildirilib.

"Qərbi Azərbaycan İcması dünya ictimaiyyətini Ermənistanın bu qeyri-insani və irqçi siyasətini pisləməsini, ona son verməsi və əhalinin təchizatına mane olmağını dayandırması üçün bu ölkəyə təzyiq etməyə çağırır", – deyə bəyanatda vurğulanıb.

***

Qərbi Azərbaycan İcması Almaniya Bundestaqının xarici məsələlər komitəsinin sədri Mihael Rotun Avropa İttifaqının Ermənistandakı missiyasının Azərbaycan ərazilərini də əhatə etməsinin vacibliyi ilə bağlı bəyanatına dair açıqlama yayıb.

Açıqlamada M.Rotdan Azərbaycanın suverenliyinə qarşı yönəlmiş bu cür təxribatçı bəyanatlardan çəkinmək tələb edilib. "M.Rotun diqqətinə çatdırırıq ki, Avropa İttifaqının Ermənistandakı missiyasının patrul apardığı ərazilərin əksəriyyəti vaxtilə azərbaycanlıların yaşadığı və deportasiya edildiyi ərazilərdir. Qərbi Azərbaycan İcması hesab edir ki, M.Rot Ermənistan hökumətini azərbaycanlıların öz dədə-baba yurdlarına qayıdışına imkan yaratmağa və Avropa İttifaqının missiyasını bu prosesə töhfə verməyə çağırmalıdır", – deyə Qərbi Azərbaycan İcmasının açıqlamasında bildirilib.

***

Fransa Azərbaycana qarşı təxribatları davam etdirir. Bu dəfə estafet Parisin meri Ann İdalqo başda olmaqla, fransız şəhərlərindən "humanitar yardım" şousu təşkil edən heyətə ötürülüb.

Bu barədə Qərbi Azərbaycan İcmasından bildirilib.

Qeyd olunub ki, Ann İdalqo və onunla gələn fransız heyət siyasi hoqqabazlıqlara, dini təəssübkeşlik əsasında azərbaycanlılara qarşı nifrətə son qoymalıdır.

*XQ*

Bakı Dövlət Universiteti – 104

# Xalq Cümhuriyyətinin yadigarı

**Azərbaycan xalqının taleyində, milli mədəniyyətimizin və ictimai fikir tariximizin, elm və təhsilimizin inkişafında 1919-cu ilin 1 sentyabrı yeni mərhələnin başlanğıcı sayılan şərəfli bir tarixdir. 104 il əvvəl məhz bu gün Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti uzun və gərgin müzakirələrdən sonra tarixi qərara imza ataraq Bakı Dövlət Universitetinin təsisi haqqında qanun qəbul etdi.**

Bakı Dövlət Universiteti ilk illərdən xalqımızın maariflənməsində mühüm rol oynadı. Sovet hakimiyyəti illərində ölkənin ilk ali məktəbi rejimin amansız təzyiqlərinə, hətta 30-cu illərdə fəaliyyətinin bir müddət məhdudlaşdırılmasına baxmayaraq, elm və təhsil məbədi kimi öz tarixi missiyasını davam etdirməyi bacardı.

104 il əvvəl 2 fakültə, 44 nəfər professor-müəllim heyəti və 1094 tələbə ilə fəaliyyətə başlayan universitet hazırda 16 fakültə, 120 kafedra, 2 elmi-tədqiqat institutu, Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzi, 4 elmi-tədqiqat mərkəzi və 21 elmi-tədqiqat laboratoriyası, 2 milyondan çox kitab fondu olan Elmi Kitabxana, 5 muzey, 5 beynəlxalq institut və mərkəz, 1 filial, 1 kollec və 1 liseylə müqəddəs yolunu davam etdirir.



Hazırda universitetdə ali təhsilin bütün səviyyələrində 25 minə yaxın tələbə təhsil alır. 3 mindən çox əməkdaş, o cümlədən, 1500 nəfərə qədər professor-müəllim heyəti və elmi işçi çalışır. Onlardan 250-dən çoxu elmlər doktoru, professor, 1000 nəfərə yaxın əməkdaş isə fəlsəfə doktoru, dosentdir. Bu gün BDU-da 86 ixtisas, 264 ixtisaslaşma üzrə kadr hazırlığı həyata keçirilir.

BDU-nun inkişafında yeni və mühüm mərhələ, heç şübhəsiz, 1969-cu ildə Ümummilli lider Heydər Əliyevin ölkəyə rəhbərlik etməsi ilə başladı. Universitetin elm və təhsil flaqmanı kimi şöhrətlənməsi məhz bu tarixdən sonra gerçəkləşdi. Ali təhsil ocağının 50 illik yubiley tədbirlərinə Ulu öndər Heydər Əliyevin şəxsən rəhbərlik etməsi, dövlət başçısı kimi daimi qayğısı BDU-nun nüfuzunu daha da artırdı. Universitetin 50 illik yubiley tədbirində respublika rəhbərliyinə yenicə gəlmiş Heydər Əliyevin böyük cəsarət nümayiş etdirərək məhz ana dilimizdə çıxış etməsi bu gün də xalqımız tərəfindən ehtiram və minnətdarlıqla yad edilir.

Ulu öndər həmin tarixi hadisəni sonralar belə yada salmışdı: "Xatirimdədir, universitetin 50 illik yubileyində çıxış edərkən, şübhəsiz ki, öz ana dilimdə, Azərbaycan dilində danışdım. Bu, böyük bir sensasiya kimi qəbul olundu – nə cür olur ki, respublikanın rəhbəri Azərbaycan dilində çıxış edir... Bəziləri məni bu hadisə münasibətilə təbrik edirdilər, minnətdarlıqlarını bildirirdilər. Dilini sevən, milli ruhla yaşayan insanlar, doğrudan da, bunu böyük bir hadisə kimi qəbul etdilər".

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra BDU Prezident Heydər Əliyevin diqqət və qayğısı sayəsində inkişafının yeni və daha parlaq mərhələsinə qədəm qoydu. Ulu öndər ənənələrə sadiqliyini bir daha nümayiş etdirərək ölkənin ilk universitetinin xeyirxahı və hamisi, eyni zamanda, məzunu kimi qayğısını əsirgəmədi. Bu gün isə həmin tarixi missiyanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev davam etdirir. BDU möhtərəm Prezidentimiz və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın hərtərəfli qayğısı ilə tərəqqi və inkişaf yolunda inamla addımlayır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2019-cu ildə universitetin 100 illik yubileyinin təntənəli şəkildə qeyd olunması, əməkdaşların ali dövlət mükafatları ilə təltif edilməsi BDU ailəsinin hər bir üzvü tərəfindən ehtiramla xatırlanır. Ölkə rəhbərinin yubiley mərasimindəki proqram xarakterli çıxışı universitetin hər bir əməkdaşı üçün aydın, konkret fəaliyyət proqramıdır.

BDU kollektivi bu gün doğma təhsil və elm ocağının yaradılmasının növbəti ildönümünü Ulu öndərimiz Heydər Əliyevin 100 illik yubileyi ilində qeyd edir. 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan olunması bütün xalqımız kimi, çoxminli BDU kollektivində də yüksək mənəvi-siyasi fəallıq yaratmışdır. Dövlət başçısının sərəncamında əksini tapan fikirlər ötən günlərimizə nəzər salmaq, dövlətimizin bugünkü inkişaf səviyyəsinə hansı çətinliklərdən keçərək gəlib çatdığımızı bir daha aydınlaşdırmaq və eyni zamanda, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə gələcək hədəflərimizə nail olmağımız üçün mükəmməl bir proqram, aydın bir yol xəritəsidir.

Hər zaman Ulu öndərin irsinin təbliğini, bu irsin gənc nəslə aşılanmasını özünün ali məqsədlərindən hesab edən BDU kollektivi "Heydər Əliyev İli"ndə bu istiqamətdə səylərini daha da artırmışdır. Bu məqsədlə BDU-nun Elmi Şurasında qəbul olunmuş Tədbirlər Planında BDU-nun dünya şöhrətli məzunu Heydər Əliyevin həyatı və çoxşaxəli fəaliyyəti ilə bağlı elmi-tədqiqat işlərinin aparılması, beynəlxalq konfransların, seminarların keçirilməsi, kitabların hazırlanması, xüsusi mühazirələrin və dərslərin təşkili və s. kimi digər mühüm vəzifələr əksini tapmışdır.

BDU Elmi Şurasının Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş genişləndirilmiş xüsusi iclası keçirilmişdir. Ulu öndərin irsinin beynəlxalq aləmdə təbliği istiqamətində ciddi addımlar atan BDU Yeni Azərbaycan Partiyası və Ankara Universiteti ilə birgə "Heydər Əliyev İli"ndə "Müstəqil Azərbaycanın memarı" adlı beynəlxalq elmi konfrans təşkil etmişdir. Ulu öndərin irsinin bölgələrdə təbliğinə də xüsusi həssaslıqla yanaşılmış, Tərtər və Masallı rayonlarının icra hakimiyyətləri ilə birgə konfranslar keçirilmişdir. Tədbirlər Planında əksini tapan vəzifələrin icrası bu gün də davam edir.

BDU-nun 2021–2030-cu illər üçün Strateji İnkişaf Planında qarşıya qoyulmuş vəzifələr, priroritet istiqamətlər əsasında universitetdə təhsilin inkişafı, elmi tədqiqatların keyfiyyətinin artırılması, idarəetmə sisteminin dinamikliyinin təmin edilməsi məqsədilə müntəzəm olaraq struktur islahatları aparılır, gənc kadrlar məsul vəzifələrə irəli çəkilir. Təhsilalanlar və akademik heyət arasında qarşılıqlı əlaqələr dərinləşdirilir, təhsildə keyfiyyət təminatını, müvafiq proseslərin stimullaşdırılmasını ehtiva edən müasir yanaşmalar tətbiq olunur.

Universitet məzunlarının rəqabətqabiliyyətliliyinin artırılması, təhsilalanlarda yeni iqtisadi və idarəetmə düşüncə tərzinin formalaşdırılması və s. məqsədilə Universitetin keyfiyyət təminatı siyasəti yenilənmiş, Keyfiyyət Təminatı Mərkəzi yaradılmışdır. İnsan Resurslarını Vahid İdarəetmə Sistemi, Elektron Sənəd Dövriyyəsi informasiya idarəetmə sistemi uğurla tətbiq olunmuş, BDU Elmi Kitabxanasının fondunun rəqəmsallaşdırılması sürətləndirilmişdir.

Aparılan islahatlar, müasir dərslik və dərs vəsaitləri ilə təminatın gücləndirilməsi, əmək bazarının tələbləri nəzərə alınaraq təhsilin bakalavriat və magistratura səviyyələrində bir sıra yeni ixtisas və ixtisaslaşmaların açılması, xarici ölkələrin nüfuzlu universitetləri ilə ikili diplom proqramlarının həyata keçirilməsi və s. tədrisin, elmi-tədqiqatların keyfiyyətinin yüksəldilməsinə, tələbələrin ictimai fəallığının artırılmasına, onların Azərbaycançılıq ideyasına, milli-mənəvi dəyərlərə bağlı, əsl vətəndaş kimi formalaşmasına xidmət edir.

BDU ölkəmizdə "2019–2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq dünya elminin qabaqcıl elmi və təlim-tədris nailiyyətlərindən istifadə etməklə əmək bazarının tələblərinə uyğun mütəxəssislərin hazırlanması istiqamətində ABŞ, Almaniya, İsrail, İsveçrə, Qazaxıstan və s. kimi ölkələrin qabaqcıl universitet və institutları ilə bakalavriat, magistratura, doktorantura pilləsi üzrə 11 beynəlxalq ikili diplom proqramlarını tətbiq edir. BDU beynəlxalq reytinqlərdə mövqeyini möhkəmləndirir.

104 yaşlı BDU zəngin ənənələrini inkişaf etdirərək, beynəlxalq təcrübədən, dünya elminin nailiyyətlərindən faydalanaraq, Azərbaycan xalqına və beynəlxalq ictimaiyyətə elmi əsaslara, milli və mədəni dəyərlərə söykənən və müasir dövrün tələblərinə cavab verən kadrlar hazırlamaq missiyasını uğurla davam etdirir.

***Elçin BABAYEV,***
***Bakı Dövlət Universitetinin rektoru***

Gəncə Dövlət Universiteti – 85

# Nizami yurdunun ali təhsil ocağı

**Müstəqillik illərində fəaliyyətə başlayan dövlət və özəl ali məktəblərin sayı az deyil və bu gün onlar ölkədə kadr hazırlığı sahəsində mühüm işlər görür. Lakin elə təhsil ocaqları da var ki, zəngin tarixə malikdir, uzun və şərəfli bir yol keçib. Onlardan biri də Gəncə Dövlət Universitetidir ki, artıq bu gün 85 yaşı tamam olur.**

1938-ci ildə ikiillik Müəllimlər İnstitutu kimi yaradılan bu ali məktəb 5 il sonra, yəni 1943-cü ildə Gəncə Dövlət Pedaqoji İnstitutu, 2000-ci ildən isə Gəncə Dövlət Universiteti kimi fəaliyyət göstərir.

Son illər Gəncə Dövlət Universiteti kifayət qədər inkişaf etmiş, onun maddi-texniki bazası xeyli yaxşılaşdırılmış, kadr hazırlığının keyfiyyəti nəzərəçarpacaq dərəcədə yüksəlmişdir.Bu, hər tədris ilinin ilk günlərindən əmək intizamının gücləndirilməsi, dərsə davamiyyətin artırılması, vaxtaşırı monitorinqlərin keçirilməsi, kafedralar üzrə professor–müəllim heyətinin açıq dərslərinin təşkili sayəsində mümkün olmuşdur.

Hazırda universitetdə 8 fakültə, 31 kafedra, 2 departament, 5 mərkəz, 9 şöbə,Tyutor xidməti və Nizami Gəncəvi adına akt zalı fəaliyyət göstərir.

Torpaqlarımızın azadlığı və respublikamızın suverenliyi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalmış universitet tələbələrinin və məzunlarının əziz xatirəsini əbədiləşdirmək məqsədi ilə bütün fakültələrdə "Şəhid adına auditoriya" açılmış və tələbələrin istifadəsinə verilmişdir.



Universitetdə ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə bütün tədris binalarının qarşısında 100 ədəd ting basdırılmışdır və tələbələr ona xüsusi qulluq göstərirlər. Ulu öndərin irsinin təbliği məqsədilə yaradılan Heydər Əliyev Məktəbi də, burada vaxtaşırı keçirilən tədbirlər də diqqəti cəlb edir. 2020-ci ildəTəhsildə Keyfiyyət Təminatı Agentliyinin tələblərinə uyğun olaraq universitetdə Keyfiyyətin təminatı Mərkəzinin yaradılması və keçən ildən fəaliyyətə başlaması da son illərin yeniliklərindəndir.

Universitet tələbələrinin İT sahəsində bilik və bacarıqlarının artırılması məqsədi ilə Elm və Təhsil Nazirliyi və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin birgə "Code for future" layihəsi çərçivəsində riyaziyyat-informatika fakültəsinin 3-cü və 4-cü tədris ili tələbələri üçün bu ilin fevral ayından kurslar təşkil olunmuş, 66 nəfər beynəlxalq səviyyəli sertifikatlarla təmin olunmuşdur.

Gəncə Dövlət Universitetinin tədris prosesində tələbələrin fəallığını artıran yeni təlim forma və texnologiyalarından istifadə edilir. Tələbə və müəllim əməkdaşlığının yaradılmasına xüsusi diqqət yetirilir.

Göründüyü kimi, Gəncə Dövlət Universiteti, necə deyərlər, daha dünənki universitet deyil. Tələbələrin semestr imtahanlarında lazımi nəticələr əldə etməsi üçün burada bütün şərait yaradılıb. Tədris prosesinin gedişində müasir texniki vasitələrdən, lövhələrdən istifadə olunur, tələbələrə ən zəruri məlumatlar vizual şəkildə çatdırılır. Tələbələrin imtahanlara hazırlaşa bilməsi üçün bütün fənlərin mühazirə mətnləri, suallar ali məktəbin saytında elektron formada yerləşdirilir. İmtahanlar zamanı yarana biləcək münaqişəli halların aradan qaldırılması üçün də bütün zəruri tədbirlər görülür.

Yubilyar universitetin professor–müəllim heyəti və əməkdaşlarının sosial-məişət məsələləri də diqqət mərkəzindədir. Ən müxtəlif nominasiyalar üzrə həvəsləndirici mükafatlar təsis edilib.

Keçən tədris ilində universitetin tarixində ilk dəfə olaraq kimya və biologiya müəllimliyi ixtisasına tədrisi ingilis dilində olan tələbə qəbulu həyata keçirilib. 2023–2024-cü tədris ilində isə biznesin təşkili və idarə edilməsi ixtisası üzrə MBA proqramı üzrə magistratura səviyyəsinə tələbə qəbulu aparılıb.

Bu tədris ilindən başlayaraq, universitet tarixində ilk dəfə olaraq ikili diplom hazırlığına başlanılacaq. Bu məqsədlə Türkiyə Respublikasının İzmir şəhərində yerləşən 9 Eylül Universiteti ilə əməkdaşlıq barədə razılıq əldə edilmişdir. İqtisadiyyat, tarix ixtisasları, magistratura səviyyəsində isə iqtisadiyyatın hüquqi tənzimlənməsi, ixtisaslaşması üzrə 9 Eylül Universiteti ilə birlikdə ikili diplom üzrə təlimlər təşkil ediləcək.

Gəncə Dövlət Universiteti ölkə Prezidentinin Sərəncamı ilə imzalanmış "2019–2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq Avropa komissiyasının maliyyələşdirdiyi "Erasmus+KA2" proqramı çərçivəsində 3 layihədə tərəfdaş qismində iştirak edir.

BMT-nin 2015-ci ilin sentyabrında keçirilən tarixi sammitində dünya liderləri tərəfindən qəbul edilmiş "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"də əks olunan Məqsədlər və Azərbaycan Prezidentinin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030:sosial–iqtisadi inkişafa dair Milli Prioritetlər" əsas götürülərək, Gəncə Dövlət Universitetində Nizami Gəncəvi adına Dayanıqlı Ağıllı Şəhərlər və Regionlar Mərkəzi yaradılmışdır. Mərkəz eyni zamanda, Avropa Yendənqurma və İnkişaf Bankının həyata keçirdiyi "Gəncə Yaşıl Şəhər" layihəsi çərçivəsində yerli koordinator qismində iştirak edir.

...Bəli, 85 yaşlı universitetin səsi dünyanın hər yerindən gəlir. Avropa ölkələrinin əksər ali məktəbləri ilə əlaqələr yaradılıb. Universitetin müəllimləri, tələbələri xarici ölkələrdə kurs keçir, təcrübə mübadiləsi aparır, digər tədbirlərdə iştirak edirlər. Eyni zamanda, universitetə gələn xarici qonaqların–tanınmış professorların, müəllimlərin, tələbələrin sayı gündən-günə artır.

Zəngin ənənələrə, özünəməxsus tarixi keçmişə malik olan bu ali təhsil ocağı 85 il ərzində təkcə ölkəmiz üçün deyil, qonşu respublikalar üçün də peşəkar, səriştəli pedaqoji kadrlar hazırlamış və Qərb regionunda maarifçiliyin inkişafında öz xidmətlərini göstərmişdir.

Artıq on ilə yaxındır ki, universitetə rəhbərlik edən, kimya elmləri doktoru, professor, rektor Yusif Yusibov söhbət zamanı belə dedi:

– Universitetimiz 85 ildə şərəfli yol keçib. Azərbaycan Prezidenti İlham Əliyevin təhsil sahəsinə dair verdiyi tapşırıqları yerinə yetirmək, Elm və Təhsil nazirliyinin qarşıya qoyduğu hədəflərə çatmaq, Vətənə, xalqına, Ulu öndər ideyalarına sadiq Azərbaycan vətəndaşı, mütəxəssisi yetişdirmək yolunda bundan sonra da əzmlə çalışmaqda qərarlıyıq. Biz bu günlə yaşamamalı, gələcək barədə düşünməliyik. Yalnız bu halda gördüyümüz işlərin səmərəsini görə biləcəyik.

***Hamlet QASIMOV,***
***XQ***

# Onlar xaricdə oxuyacaqlar

**"Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı" çərçivəsində Azərbaycanın hüdudlarından kənarda oxuyan tələbələr diplom aldıqdan sonra yüksək ixtisaslı mütəxəssislər kimi Vətənə qayıdıb, siyasi, iqtisadi, social, elm, təhsil və sair sahələrdə çalışacaq, ölkənin tərəqqisinə layiqli töhfələr verəcəklər. Xaricdə qalan gənclərimiz isə orada Azərbaycan adını ucaltmaq, millətimizə şərəf gətirmək əzmindədirlər. Onlardan bir neçəsinin ürək sözlərini təqdim edirik.**

**Yüksək təqaüdlə Avropada bir neçə universitetə qəbul olunan Şəms Humay Nəsibzadə:**

– Amerika Birləşmiş Ştatlarında (ABŞ) təhsil almaq mənim uşaqlıq arzum idi. Buna görə də öz üzərimdə ciddi çalışaraq, Bakı Slavyan Universitetinin nəzdindəki məktəb–lisey kompleksində təhsilimi fərqlənmə ilə başa vurdum. Qəbul dəvəti çox ölkədən



gəlib. ABŞ, Türkiyə, Macarıstan, Belçika və Finlandiyada ödənişsiz, təqaüdlü təhsil hüququ qazanmışam. Hər biri üçün xarici dil bilgisindən imtahan və müsahibə verdim. Bununla yanaşı, riyaziyyat və məntiq fənlərindən də imtahan verdim. "Türkiyə bursları" təqaüd proqramında xüsusilə çətin oldu. Boğaziçi Universitetini seçdim, çünki məqsədim gələcəkdə ABŞ-da təhsil almaqdır. İki il Boğaziçi təhsilindən sonra oradan da ABŞ-a rahat gedə biləcəyəm. Kompüter mühəndisliyi üzrə təhsil alacaq, magistraturanı da ABŞ-da oxuyacağam.

**Bakı Dövlət Universitetinin (BDU) nəzdində "Gənc istedadlar" liseyinin ötənilki məzunu, Sinqapur Milli Universitetinin tələbəsi Nəriman Şirinli:**



– Xaricdə təhsil imkanı qazanan gənclərin hansı hissləri keçirdiklərini yaxşı bilirəm. Çünki özüm artıq 2-ci ildir ki, bu xoşbəxtliyə nail olmuşam. Beynəlxalq və yerli olimpiadalarda qalib gəlmişəm, hazırda Sinqapurda kimya mühəndisliyi ixtisası üzrə təhsil alıram.

Sinqapur Milli Universiteti xarici tələbələr üçün çoxlimitli bir ali təhsil ocağıdır. universitetdir. Hər bir xarici universitetdə olduğu kimi, Sinqapur universitetində də təhsildə müəyyən fərqliliklər var. Məsələn, dərslərin keçirilmə stili fərqlidir. Elə dərslər var ki, 30 nəfər, elə dərslər də var ki, 5-6 min nəfər götürülür. Bu da bir çox mühazirələrin onlayn formada keçirilməsinə səbəb olur. Müəllimlər, professorlar bu dərsləri ya "Zoom" platforması üzərindən keçir, ya da video formatda mövzunu izah edirlər. Canlı dərslər isə 30 nəfərlik qruplar şəklində professor və ya professor köməkçisi tərəfindən keçirilir. Qiymətləndirmə sistemində də fərqliliklər var. Orada olimpiadada olduğu kimi, medal, rəqabət sistemidir. Bakalavr olmağıma baxmayaraq, araşdırmalara qatıla, bir çox laboratoriya işlərinə qoşulub, hətta elmi məqalələr də çıxara bilirəm.




**Dövlət Proqramı ilə Edinburq Universitetinə qəbul olunan BDU məzunu Nihad Abbas:**

– Ölkəmizi xaricdə təmsil etmək əvəzsiz duyğudur, şərəf işidir. Gözləmədiyim bir vaxtda Dövlət Proqramının üçüncü mərhələ qalibləri açıqlandı və gördüm ki, mən Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Edinburq Universitetinə Dövlət idarəetməsi ixtisası üzrə qəbul olunmuşam. Bu uğuruma görə özümü məzunu olduğum Heydər Əliyev adına liseyə, eləcə də fərqlənmə diplomu ilə bitirdiyim BDU-nun Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinə borclu sayıram. Bu il Beynəlxalq münasibətlər ixtisasını və 94.35 ortalama ilə başa vurmuşam.

***Ə.ƏLİYEV,***
***XQ***

# Dünya kibernetikləri Bakıda



**Elm və Təhsil Nazirliyinin İdarəetmə Sistemləri İnstitutu (İSİ), İnformasiya Texnologiyaları İnstitutu və ADA Universitetinin təşkilatşılığı ilə Bakıda "Kibernetika və İnformatika Problemləri" mövzusunda 5-ci beynəlxalq konfransı başlanıb.**

İSİ-nin baş direktoru, akademik Əli Abbasov bildirib ki, müasir dövrdə informasiya cəmiyyətinin prioritetlərindən biri də məhz kibernetika və informatika sahələrinin inkişafıdır. Bu baxımdan keçirilən konfransın əsas məqsədi sözügedən sahələr ətrafında "Dövlət–Özəl–Akademik" əməkdaşlığın qurulması, problemlərin həlli üzrə dünya alimlərilə diskussiyaların aparılmasıdır.

Tədbirdə Elm və Təhsil Nazirliyinin Təhsildə Keyfiyyət Təminatı Agentliyinin İdarə Heyətinin sədri Ülkər Səttarova, ADA Universitetinin İcraçı prorektoru Fariz İsmayılzadə, Qazaxıstanın İnformasiya və Hesablama Texnologiyaları İnstitutunun professoru, Qazaxıstan Respublikası Milli Elmlər Akademiyasının müxbir üzvü Yedilkhan Amirgaliyev, İSİ-nin laboratoriya müdiri, SİNAM MMC-nin prezidenti Elçin Əliyev, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (QDİƏT) baş katibi, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Asəf Hacıyev çıxış edərək üç gün davam edəcək konfransın sözügedən sahələrdə mövcud problemlərin həlli istiqamətində beynəlxalq əməkdaşlığa yol açdığını bildiriblər.

***XQ***

# Tələbələr Yekaterinburqdan 28 medalla qayıdırlar

**Azərbaycan idmanı adına növbəti uğuru multiidman yarışında ölkəmizi layiqincə təmsil edən tələbə atletlərimiz qazanıblar. Rusiyanın Yekaterinburq şəhərində keçirilən Beynəlxalq Universitet İdman Festivalında Azərbaycanın 11 təhsil ocağından 54-ü kişi, 15-i qadın olmaqla 69 idmançı iştirak edib. Yığmamız yekunda 4-ü qızıl, 8-i gümüş, 15-i bürünc olmaqla 28 medala sahib olub.**




8 idman növündə yarışa qatılan komandamız medalları boks, güləş, taekvondo, sambo, üzgüçülük üzrə qazanıb. Mükafatlardan 11-i güləş, 7-si boks, 6-sı taekvondo, 3-ü sambo, 1-i isə üzgüçülüyün payına düşür.

Festivalda komandamızın əldə etdiyi nəticələrlə bağlı "Xalq qəzeti"nə açıqlama verən Gənclər və İdman Nazirliyinin sektor müdiri Aydın Məmmədov yarışda, ümumilikdə, göstəricilərin yaxşı olduğunu bildirib: "Festivalda 36 ölkənin 264 ali təhsil müəssisəsindən 3 minə yaxın tələbə idmançı 14 növdə qüvvələrini sınayırdılar. İdmançıların öz potensiallarından maksimum istifadə etmələri üçün lazımi şərait yaradılmışdı. Ölkəmizin ali təhsil müəssisələrindən 69 idmançı 8 növdə mübarizə aparıb. Komandamız, ümumilikdə, 28 medal qazandı ki, bu da yaxşı nəticədir".

Yarışda komandamızın ilk qızıl medalını qazanan qadın güləşçi Gültəkin Şirinova (53 kq) əsas hədəfin çempionluq olduğunu bildirib: "Yığmamıza ilk qızıl medalı qazandırdığım üçün çox xoşbəxtəm. Əsas hədəf qalib adını qazanmaq idi. Birinci yeri tutmaq üçün çox çalışdım və sonda buna nail oldum.

Üzgüçülük üzrə milli komandamızın baş məşqçisi Rəşad Əbdürrəhmanov isə federasiyanın mətbuat xidmətinə açıqlamasında bildirib ki, festivalın qaydalarında edilən dəyişikliyə əsasən, turnirə Rusiyadan qatılan idmançıların sayı həddən artıq çox olub: "Əvvəlki yarışlarda hər ölkədən idman növləri üzrə yalnız iki üzgüçünün qatılmasına icazə verilirdi. Builki qaydaya əsasən, hər universitetdən iki idmançı iştirak etdi. Bu isə Rusiyanın daha çox üzgüçü ilə təmsil olunması demək idi. Yarışda mübarizə çox gərgin idi. Üzgüçümüz Ramil Vəlizadə belə çətin mübarizə şəraitində gümüş medal qazana bildi. Digər üzgüçümüz Fatimə Alkərəmova isə iki dəfə finala vəsiqə qazansa da, ilk üçlükdə yer ala bilmədi".

Yarışda taekvondo üzrə qalib adını qazanmış Səyyad Dadaşov (54 kq) jurnalistlərə müsahibəsində uğurların davamlı olması üçün bundan sonra da öz üzərində çalışacağını bildirib: "Rəqiblər güclü olsalar da onların öhdəsindən gəldim. Qalib adını qazanmaq gözəl hissdir. Bunun üçün hazırlığın yüksək olmalıdır. Sevinirəm ki, yarışın baş mükafatını qazandım".

Onun komanda yoldaşı, gümüş mükafatçı Eltac Qafarov (80 kq) yarışın gərgin, lakin maraqlı mübarizə şəraitində keçdiyini bildirib: "Rəqiblərimiz güclü idi. Ölkəmizin bayrağını dalğalandırdığım üçün sevincliyəm. Gələcəkdə qızıl medal qazanacağıma inanıram və buna üçün bütün qüvvəmi səfərbər edəcəyəm".

***L.QURBANOVA, XQ***

## Milli-mədəni intibahımıza xidmət edən qocaman nəşr



**Dünyadakı ilk qəzet bundan 418 il əvvəl, 1605-ci ildə o vaxt almanlara məxsus olan Strasburq şəhərində Yohann Karolus adlı bir ziyalı tərəfindən buraxılmışdır. Qəzetin adı belə olmuşdur: "Relation aller Fürnemmen und gedenckwürdigen Historien", yəni "Vacib və əhəmiyyətli bütün hadisələr haqqında xəbər". Həftədə bir dəfə çıxan bu mətbuat orqanında Almaniyada və qonşu ölkələrdə meydana gələn hadisələr haqqında xəbərlər verilmişdir. Xəbərlər bir qayda olaraq bir-iki həftə əvvəl, ən yaxşı halda 3-5 gün əvvəl baş verən hadisələr haqqında idi. Zamanla qəzet işi bütün dünyada inkişaf etmişdir.**

Azərbaycan mətbuatı qismən gəncdir, onun 148 yaşı var. Ölkəmizin ən əski qəzetlərindən biri 104 yaşlı "Xalq qəzeti"dir. Bu mətbuat orqanı bir əsrdən artıqdır ki, dövrə, zamana güzgü tutur, salnaməçilik vəzifəsini yerinə yetirərək oxucuları dünyanın və ölkənin həyatındakı mühüm yeniliklərlə tanış edir.

"Xalq qəzeti" bu müddət ərzində mürəkkəb inkişaf yolu keçmiş, totalitar sovet rejiminin maneələrinə baxmayaraq, daima Azərbaycan xalqının milli-mədəni intibahına, mentalitetinin müsbət cəhətlərinə sədaqətlə xidmət etməyə çalışmışdır. Xüsusilə, indiki müstəqillik dövründə ölkəmizin siyasi, iqtisadi, mədəni cəhətdən çiçəklənməsinə, quruculuq əzminin möhkəmlənməsinə, xalqımızın xoşbəxt gələcəyinə öz töhfəsini əsirgəmir.

Növbəti ildönümü münasibətilə mənə doğma olan "Xalq qəzeti"nin istedadlı kollektivini ürəkdən təbrik edir, yeni-yeni yaradıcılıq uğurları arzulayıram! Qəzetin qədirbilən oxucularını da təbrik edirəm!

***Ramiz ƏSKƏR,***
***"Xalq qəzeti"nin baş redaktorunun keçmiş müavini, Əməkdar jurnalist***


# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

## Ağcabədi rayonu, Q.Əliyev adına 528 şagird yerlik Hindarx kənd 3 nömrəli tam orta məktəb binasının tikinti işlərinin satın alınması üçün

## AÇIQ TENDER ELAN EDİR

Açıq tender iştirakçılarına təklif olunur ki, öz təkliflərini imzalanıb möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

– iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi və təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək lazımdır:

Əlaqələndirici şəxs – Z.Quliyev.

Ünvan– Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi küçəsi 18.

Tel: (+99412) 465 73 48 (134).

Maraqlananlar açıq tender prosedurunun əsas şərtlər toplusunu 2000,0 (iki min) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər. İştirak haqqı heç bir halda geri qaytarılmır.

Bankın adı : "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı
Kod – 805603
VÖEN – 9900001881
M/h – AZ03NABZ01350100000000002944
S.W.I.F.T. İBAZAZ 2X
H/h – AZ88IBAZ38030019441856517211
VÖEN – 1500016711

İddiaçılar açıq tender prosedurunda iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir.) Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir (01.09.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);
- iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (01.09.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);
- iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;
- iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;
- tender təklifini və satınalma müqaviləsini imzalamaq salahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);
- iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi oqranı, probasiya şöbəsi və ya müvafiq kommerisya məhkəməsi tərəfindən təqdim olunmuş arayış) (01.09.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);
- kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);
